

Milli azadlıqdan şirin nemət yoxdur!

# Zəngilan, günün mübarək!




Bax səh. 3

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvəti...

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 20 oktyabr 2023-cü il, cümə / № 192 (6536). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik



## Azərbaycan hədəfə çevrilməyəcək!

**Azərbaycan dünyada fərqli standartlar, ədalətsiz yanaşmalarla üz-üzə qalan azsaylı dövlətlərdəndir. Hətta Ermənistanın 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxladığı dövrlərdə belə ölkəmizə qarşı beynəlxalq hüquqdan kənar münasibətləri az görməmişik. Ermənistanın BMT TŞ-nin 4 qətnaməsini icra etmədiyi, Avropanın bu gün ermənipərəst mövqedən çıxış edən təşkilatlarının qərarlarını və sənədlərini saya salmadığı, beynəlxalq aləmin çağırışlarına məhəl qoymadığı günlərdə belə İrəvanla bağlı hər hansı bir faktiki əməli prosesin şahidi olmamışıq - tam əksinə, adıçəkilən qurumlar və dövlətlər məsələni görməzdən gəlməyə çalışıb, bir milyona yaxın azərbaycanlının taleyinə qarşı...**

## Vətən müharibəsinin 24-cü günü

### 20.10.2020

İlham Əliyev
@azpresident

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli,

Translate Tweet

4:01 PM · Oct 20, 2020 · Twitter Web App

İlham Əliyev
@azpresident

Replying to @azpresident

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri işğaldan azad edilib. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!

Translate Tweet

4:01 PM · Oct 20, 2020 · Twitter Web App

- **Prezident İlham Əliyev xalqa müraciət edib.**
- **Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi instaqram səhifəsində paylaşım edib.**
- **Zəngilan şəhərində Azərbaycanın dövlət bayrağı ucaldılıb.**
- **Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 20-si saat 12:00-dək 61 mülki şəxs həlak olub, 291 nəfər xəsarət alıb, 1941 ev, 90 çoxmənzilli yaşayış binası və 382 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.**

# I Qurultaydan VI Qurultaya...

Bax səh. 5

## İkili standartlar ayaq açıb yeriyəndə...




Bax səh. 5

## 20 oktyabr 1981-ci il...

### Milli energetikamızın inkişafında yeni mərhələnin başlanğıcı

Bax səh. 4

## Qınaq və çağırış!

### İcma Avropa İttifaqına və BFT-a səsləndi



Bax səh. 4

## Azərbaycanın mövqeyi dəyişməzdir

Azərbaycan hər zaman humanizm prinsiplərinə sadiqdir və bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edir. Oktyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərinə işgüzar səfəri çərçivəsində İsrail-Fələstin münaqişə zonasında baş verən son hadisələrlə bağlı İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İcraiyyə Komitəsinin nazirlər səviyyəsində keçirilən növbədənkənar iclasında...

Bax səh. 3

## İnsan hüquqları müdafiəsinin problemləri

Respublikamızda 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiya insan hüquq və azadlıqlarının həyata keçirilməsinə əsaslanan yeni dövlət quruculuğunun başlanğıcı oldu. Bu konstitusiya insan hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi müəyyənləşdirib. Sənədin "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlı üçüncü fəsli insan hüquqlarının geniş dairəsini...

Bax səh. 6

## Neft, qaz, indi isə elektrik enerjisi ixracı...

Bax səh. 3

## Sülhməramlı postlarının ləğvi davam edir

Sentyabr ayında Azərbaycan Ordusunun həyata keçirdiyi 24 saatlıq antiterror tədbirlərindən sonra regionda yeni vəziyyət yaranıb. Artıq separatçılar təslim olub və qanunsuz rejim özünü buraxıb. Qarabağdakı erməni sakinlərin əksəriyyəti isə könüllü şəkildə Ermənistana gedib. Rəsmi Bakı Qarabağın erməni sakinləri ilə reinteqrasiya prosesinə start verib. Artıq bəzi ermənilər Azərbaycan...

Bax səh. 5

## 10 dəqiqəlik çıxış...

### Avropa Ermənistanı niyə "sevir"?

Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa Parlamentindəki 10 dəqiqəlik çıxışı Avropanın "Nikol və ya erməni sevgisini", eyni zamanda, Nikolun "əsl məqsədlərini" üzə çıxardı. Çıxışını bütövlükdə, yalan, qərəz və özünütərif üzərində quran Paşinyan sanki bəzi dairələrə "mesaj" ünvanlayırdı - "məni dəstəkləyin, bütün əmrləriniz yerinə yetəcək". Bu "əmrlərin" və ya arzu-istəklərin isə nədən ibarət olması haqda fikirlər müxtəlifdir. İlk olaraq...

Bax səh. 7

# 19.10.2019 xəyanətinin anatomiyası...

Bax səh. 6

## Qəzzaya sülh gələcəkmi?



Bax səh. 7

## Rəngli inqilabların acı meyvələri



Bax səh. 6

# Azərbaycan qadınlarının VI qurultayının iştirakçılarına

Hörmətli qurultay nümayəndələri!

Əziz xanımlar!

Sizi Azərbaycan qadınlarının VI qurultayının açılışı münasibətilə salamlayır, hamınıza cansağlığı, xoşbəxtlik və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Qurultayın Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması dərin məna daşıyır. Ümummilli Lider qadınlarımızın ictimai-siyasi proseslərdə yaxından iştirak etmələrinə və dövlət qurumlarında geniş təmsil olunmalarına həmişə xüsusi diqqət yetirmişdir. Azərbaycan qadınlarının 25 il əvvəl Ulu Öndərin təşəbbüsü ilə keçirilən ilk qurultayı ölkəmizdə qadın hərəkatının keyfiyyətcə yeni mərhələsini başlatmışdır. Ötən müddətdə cəmiyyətdəki mövqeləri daha da möhkəmlənən qadınlarımız respublikanın sosial-iqtisadi və mədəni-elmi potensialının gücləndirilməsi işinə dəyərli töhfələr bəxş etmişlər. Onların təqdirəlayiq ictimai nüfuzu təməl prinsipləri Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlət qadın siyasətinin ardıcıl gerçəkləşdirilməsinin nəticəsidir.

Qloballaşmanın vüsət aldığı və milli özünəməxsusluğu sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və yaşadılmasında Azərbaycan qadınlarının xidmətləri misilsizdir. Məmnunluq hissi ilə bildirmək istəyirəm ki, onlar, eyni zamanda, maarifpərvər sələflərinin ənənələrini müvəffəqiyyətlə davam etdirərək, artan təşəbbüskarlıqları və dolğun sosial-mədəni fəaliyyətləri ilə ictimai həyatımıza yeni güc qatır, müstəqillik salnaməmizə parlaq səhifələr yazırlar. Hər bir nailiyyətimizdə qadınların böyük zəhməti vardır. Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi dövlətimizin suverenliyi və ərazi bütövlüyünün bərpası naminə döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir.

Azərbaycan öz tarixinin taleyüklü hadisələrlə zəngin, çox şərəfli bir dövrünü yaşayır. İşğaldan azad edilmiş ərazilərimizə “Böyük Qayıdış”la bağlı hazırda genişmiqyaslı müxtəlif layihələr icra olunmaqdadır. Vətənimizin rifahı üçün var qüvvələrini əsirgəməyən qadınlarımız bu nəhəng quruculuq işlərinin fəal iştirakçılarıdır.

Əminəm ki, qurultayınız aktual mövzulardakı ətraflı müzakirələri və dəyərli tövsiyələri ilə faydalı platforma rolunu oynayaraq, ölkəmizdə qadın hərəkatını milli prioritetlərdən irəli gələn vəzifələrin layiqincə həllinə istiqamətləndirəcəkdir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**



# 3-cü Azərbaycan Beynəlxalq “Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı” - “Rebuild Karabakh” Sərgisinin iştirakçılarına

Hörmətli Sərgi iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Sizi 3-cü Azərbaycan Beynəlxalq “Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı” - “Rebuild Karabakh” Sərgisinin açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Ötən illərin təcrübəsi göstərir ki, belə sərgilərin təşkili işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi həyatın bərpası, regional sülh və davamlı inkişaf məqsədinin reallaşması baxımından faydalı olmuşdur. Şübhəsiz ki, bugünkü Sərgi də gələcək biznes layihələrinin gerçəkləşdirilməsi üçün mühüm fürsətlər yaradacaqdır.

Bu Sərgi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin keçirildiyi dövrə təsadüf edir. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dövlətimizin ərazi bütövlüyünün təmin edilməsində və müstəqil inkişafında onun misilsiz xidmətləri vardır.

Ümummilli Lider Heydər Əliyev suveren Azərbaycanı Qarabağsız və onun tacı olan Şuşasız təsəvvür etmirdi. Ulu Öndər həmin ərazilərin iqtisadi-mədəni inkişafı və həyat səviyyəsinin davamlı yaxşılaşması naminə xüsusi səy göstərmişdir.

Ulu Öndərin böyük coşqu ilə sevdiyi Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən canlanır. Şəhərlər, kəndlər, qəsəbələr abadlaşdıqca, bu torpaqların əzəli sahibləri sülh şəraitində əbədi yaşamaq üçün doğma yurdlarına qayıdırlar. Həmin ərazilərdə uğurla icra edilən quruculuq-bərpa və reinteqrasiya işləri dövlət və özəl sektor arasında faydalı əməkdaşlıq və inkişaf nümunəsinə çevrilir.

Sərgi iştirakçılarını - qabaqcıl iş adamlarını işğaldan azad edilmiş doğma torpaqların bərpası və inkişafı üçün dövlətimiz tərəfindən yaradılmış imkanlardan faydalanmağa, habelə biznes ideyalarını vahid məqsəd ətrafında birləşdirməyə dəvət edirəm.

Əminəm ki, “Rebuild Karabakh” Sərgisi Qarabağda və Şərqi Zəngəzurda faydalı təşəbbüslərin uğurla gerçəkləşməsi və yeni işgüzar əlaqələr qurulması baxımından əlverişli platforma olacaqdır.

Bir daha bütün Sərgi iştirakçılarına və ziyarətçilərə işlərində müvəffəqiyyətlər arzulayıram!

Qarabağ Azərbaycandır!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# Azərbaycan hədəfə çevrilməyəcək!

## Gedəni saxlamaq olmaz...

Azərbaycan dünyada fərqli standartlar, ədalətsiz yanaşmalarla üz-üzə qalan azsaylı dövlətlərdəndir. Hətta Ermənistanın 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxladığı dövrlərdə belə ölkəmizə qarşı beynəlxalq hüquqdan kənar münasibətləri az görməmişik. Ermənistanın BMT TŞ-nin 4 qətnaməsini icra etmədiyi, Avropanın bu gün ermənipərəst mövqedən çıxış edən təşkilatlarının qərarlarını və sənədlərini saya salmadığı, beynəlxalq aləmin çağırışlarına məhəl qoymadığı günlərdə belə İrəvanla bağlı hər hansı bir faktiki əməli prosesin şahidi olmamışıq - tam əksinə, adıçəkilən qurumlar və dövlətlər məsələni görməzdən gəlməyə çalışıb, bir milyona yaxın azərbaycanlının taleyinə qarşı biganəlik nümayiş etdirib, işğalçı ilə işğala məruz qalan arasında bərabərlik işarəsi qoyub. İndiki halda - Azərbaycanın öz səyi və gücü ilə BMT TŞ qətnamələrinin icrasını, eyni zamanda, özünün ərazi bütövlüyünü və suverenliyini təmin etdiyi, beynəlxalq hüquqa və ölkə qanunvericiliyinin tələblərinə əsasən sərhədləri daxilində separatçı meylləri aradan qaldırdığı bir zamanda adını “demokrtik dünya” qoymuş bir neçə dövlət və təşkilat ölkəmizə qarşı təzyiq kampaniyası formalaşdırmağa çalışır. Maraqlıdır ki, bu təşkilatların və ölkələrin qəbul etdiyi “qətnamələrdə” və ya “bəyanatlarda” yer alan “tələblərə” baxdıqda bir məsələ ilk baxışdan diqqəti cəlb edir - həmin “sənədlərdə” yer alan tezislər, fikirlər, istəklər eyni “siyasi mətbəxin” məhsuludur. Bu isə onu deməyə əsas verir ki, bu “mövqe” həmin ölkə və ya təşkilatların səmimi mövqeyi deyil - bu mövqe erməni lobbisinin təsiri altında hazırlanmış və “qəlibə salınmış” bir kampaniyanın tərkib hissəsidir.

## Sülhə mane olan qərəzli mövqe...

Yeri gəlmişkən, Avropa Parlamentinin və AŞPA-nın ardından Avropa İttifaqı (Aİ) da 2023-cü il oktyabrın 18-də anti-Azərbaycan bəyanatla “gündəmə gəldi”. Təbii ki, Aİ ölkələri ilə Azərbaycan arasında mühüm və çoxşaxəli əlaqələr danılmazdır - hətta Aİ rəsmən Azərbaycanın regionun enerji təminatındakı xüsusi rolunu daima qiymətləndirir. Bununla belə, Qarabağa münasibətdə tutulan mövqe ədalətli və anlaşılan deyil. Bu mövqenin arxasında qaranlıq maraqların, hətta biznes maraqlarının belə dayanması istisna olunmur. Aİ-nin “sənədi” qərəzlidir, ayrı-seçkilik xarakteri daşıyır, sülhə mane olur və Ermənistanın törətdiyi müharibə cinayətlərinə və insanlıq əleyhinə cinayətlərə haqq qazandırır. Bu, kimi haqsız mövqe isə özünü demokartiyanın keşikçisi elan etmiş bir regionun ən ali təşkilatlarından birinə yaraşmır - ən əsası isə Aİ-nin də Fransanın təsiri altında ermənipərəst maraqların əsirinə çevrilməsi qəbuledilməzdir. Qarabağın erməni sakinlərinin guya “etnik təmizləmə”yə məruz qaldığını iddia edənlər unutmamalıdır ki, bu yalan Fransa-Ermənistan cütlüyünün beynəlxalq aləmə sırımağa çalışdığı əsassız bir iddiadır. Azərbaycan dövləti hər zaman bəyan edib ki, Qarabağın erməni sakinləri bu regionda qalaraq yaşamağı davam etdirə bilərlər. Hətta lokal antiterror tədbirlərindən sonra reinteqrasiya proqramı təqdim edən Azərbaycan Qarabağın erməni sakinlərinin dövlətimizin qanunvericiliyi əsasında Azərbaycan torpaqlarında yaşamını davam etdirə biləcəyini önə çəkib - regionu tərk edənlər, öz xoşu və arzusu ilə Ermənistana keçməyə üçtünlük verənlərə isə rahat şərait yaradılıb. Onlar heç bir təzyiqə və ya təsirə məruz qalmadan Ermənistana keçirlər. Təbii ki, bu da onların müstəsna hüququdur - Azərbaycan heç kimə get deməidyi kimi, heç kimi də torpağımızda qalmağa məcbur edə bilməz. Gedəni saxlamaq olmaz...

## Cinayətkara “amnistiya” tələb edənlər...



Digər tərəfdən, Aİ çoxsaylı hərbi cinayətlər törətmiş ermənilərə “amnistiya tələbi” səsləndirir. Bu da absurd bir tələbdir. Bu gün Azərbaycanın ədalət mühakiməsinə cavab verən şəxslər vaxtilə günahsız insanların kütləvi şəkildə öldürülməsində, Azərbaycan qanunlarının pozulmasında, separatizmdə günahlandırılırlar. Onların qanun qarşısında cavab vermələri ən böyük ədalətdir. Haqqı və ədaləti, ədalətli mühakiməni özünün sadiq prinsipi elan etmiş Avropa niyə ermənilərə münasibətdə öz ənənələrinə xəyanət edir? Nə üçün, vaxtilə keçmiş Yuqoslaviya ərazisində, Serbiyada və digər regionlarda kütləvi qırğınlar törədən şəxslər bu gün zindandadır, amma əli azərbaycanlıların qanına batmış separatçılara münasibətdə “amnistiya” “tələbi” irəli sürülür? Bu, hansı ədalətin göstəricisidir... Və ya bu ikili standart “hansı zərurətdən” irəli gəlir.

## Həqiqət və faktları özündə əks etdirmir...

Qeyd edildiyi kimi, artıq kampaniya halına gətirilmiş anti-Azərbaycan mövqeyi Avropa üçün gülünc təbliğat macərasına çevrilir. Kənar müşahidədən bu “kampaniyanın” zorən tətbiq edildiyi bəlli olur - erməni lobbisinin təzyiqi altında ayrı-ayrı dövlətlərin irəli sürdüyü “bəyanatlar”da yer alan müddəalar eyni qəlibdən çıxıb. Məsələn, Niderland Krallığı Parlamentinin Nümayəndələr Palatası, İspaniya Senatı, Avstraliya hökuməti, Frankofoniya təşkilatının və digər təşkilat və ölkələrin “tələb və arzuları” ermənipərəst mahiyyəti əxz edir.

Bu məsələdə, Fransanın “rolu” xüsusidir. İllərdir ölkəmizə qarşı hətta düşmənçilik səviyyəsində münasibət bəsləyən rəsmi Paris dəfələrlə beynəlxalq hüquq kodekslərini ayaqlar altına alıb - hətta Fransanın siyasi rəhbərliyi səviyyəsində separatizmə açıq rəyin ifadə olunması hallarının belə şahidi olmuşuq. İndiki halda da, Parisin təsiri və bəlkə də təzyiqi ilə anti-Azərbaycan kampaniyasının “sərhədlərinin” süni şəkildə “genişləndirildiyini” görürük. Təbii ki, bu da qəbuledilməzdir. Ən çətin, həssas dövrlərdə belə Azərbaycan qlobal təşəbbüsləri ilə beynəlxalq aləmin təhlükəsizliyinin təmin olunmasına töhfə vermiş bir ölkədir. Bu gün İspaniya və ya Niderland kimi ölkələrin “Qarabağ ermənilərinin hüquqları” kontestində irəli sürdükləri qərəz dolu fikirlər Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı həqiqət və faktları özündə əks etdirmir - bunun səbəbi isə regionla bağlı, son proseslərlə bağlı mənbələrdən istifadə edilməməsidir. Bu kimi ölkələr və ya təşkilatlar Fransa və Ermənistanın apardığı yalançı təbliğata “əsaslanırlar”. Bu isə nəticə etibarı ilə yalan və qərəz dolu mövqenin ortaya çıxmasını şərtləndirir.

Azərbaycan “etnik təmizləmə” törətməyib - tam əksinə, 30 ilə yaxın bir milyonadək vətəndaşı etnik təmizləməyə məruz qalıb. Ermənistanın apardığı təcavüzkar siyasət nəticəsində 30 ilə yaxın Azərbaycanın 20 faizədək əraziləri işğal altında saxlanılıb, dağıdılıb. 44 günlük vətən müharibəsindən sonra öz azadlığına qovuşmuş həmin ərazilərə səfər edən xarici ölkə səfirliklərinin nümayəndələri erməni vəşhiliklərini öz gözləri ilə görüblər. Bu ona dəlalət edir ki, Azərbaycana qarşı təbliğat aparan dövlət və təşkilatlar qərəzi və yalanı əsas götürüblər. Amma bu kimi yollarla nə Ermənistanın, nə də havadarlarının Azərbaycana hər hansı bir təsir etmək imkanları yoxdur. Azərbaycan hədəfə çevrilməyəcək. Çünki Azərbaycan beynəlxalq aləmin ən yaxın, etibarlı və apardığı siyasəti bəyənilən tərəfdaşlarındandıar. Fransa və ətrafının özünü “beynəlxalq aləm” kimi qələmə vermək cəhdi isə nöabəti dəfə fiaskoya məhkumdur...

***P.SADAYOĞLU***

# Zəngilan, günün mübarək!



Təqvimin oktyabr ayı. İş elə gətirib ki, Azərbaycanın dilbər guşələrindən biri olan Zəngilan rayonunun işğal altına düşməsi də, işğaldan azad olunması da məhz oktyabr ayına təsadüf edir. Rayonun mənfur düşmən tərəfindən işğalı 30 il bundan əvvəl 1993-cü il 29 oktyabr tarixində baş vermişdi. Üç il bundan əvvəl-2020-ci il oktyabrın 20-də isə rayon işğaldan azad edildi. Bu ilin yanvarında isə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə həmin tarix Zəngilan şəhəri günü kimi qeyd edilir.

**İşğaldan əvvəl**

Zəngilan rayonu inzibati ərazi vahidi kimi 1930-cu ildə təşkil edilib. Şimaldan Qubadlı, şərqdən Cəbrayıl, Cənubdan İran İslam Respublikası, Qərbdən Ermənistan ilə həmsərhəddir. Bakı-Culfa-Naxçıvan dəmir yolunun üzərində yerləşən bu rayon mühüm strateji əhəmiyyətə malikdir. Rayonun ərazisi 707 kvadratkilometr, əhalisi isə 35 mindən çox idi. İqtisadiyyatının əsasını kənd təsərrüfatı - üzümçülük, tütünçülük və heyvandarlıq təşkil edirdi.

İşğal olunmazdan əvvəl bir şəhər, bir qəsəbə və 83 kənddən ibarət olan Zəngilanda 9 məktəbəqədər müəssisə, 34 ümumtəhsil məktəbi, texniki peşə və musiqi məktəbləri, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub müəssisəsi və 22 kinoqurğu fəaliyyət göstərirdi. Rayonun iqtisadi potensialı kifayət qədər güclü idi. Belə ki, işğala qədər rayonda sənaye əhəmiyyətli ehtiyatları 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vejnəli qızıl, ehtiyatları 6618 min m3 olan və üzlük daşı istehsalına yararlı Oxçuçay mərmərləşmiş əhəngdaşı, təsdiq edilmiş ehtiyatları 129 mln. ton olan Zəngilan (Daşbaşı-Əsgurum) əhəngdaşı, ehtiyatları 6024 min ton olan qırmadaş və əhəng istehsalına yararlı Zəngilan əhəngdaşı, ümumi ehtiyatları 28943 min m3 təşkil edən Bartaz-I və Bartaz-II porfirit, ehtiyatları 1102 min m3 olan kərpic-kirəmid istehsalına yararlı Zəngilan gil və ehtiyatları 17367 min m3 olan Zəngilan qum-çınqıl qarışığı yataqları olub. Məşhur Çinar meşələri də Zəngilan rayonunun ərazisində yerləşirdi.

27 illik işğal dövründə mənfur düşmən digər yaşayış məntəqələrimizdə olduğu kimi, Zəngilanda da bütün abidələri, evləri, mülki infrastrukturu dağıdıb, sərvətlərimizi vəhşicəsinə talan edib. Ermənilərin vandalizm əməlləri Çinar meşələrindən, Bəsitçay Dövlət Təbiət Qoruğundan da yan ötməyib. Buradakı qiymətli ağaclar qırılaraq Ermənistana daşınıb və mebel sənayesində istifadə olunub.

**Zəngilanda yeni dövr**

44 günlük müharibə başa çatandan sonra isə işğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Zəngilan rayonunun da yeni dövrü başlayıb-bərpa və quruculuq dövrü. Zəngilan rayonunda da bərpa layihəri bir neçə istiqamətdə aparılır. Əsas iqtiqamətlərdən biri zəruri infrastruktur yaradılmasını əhatə edir. Postmüharibə dövründə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir neçə dəfə Zəngilana səfərə gələrək burada ayrı-ayrı layihələrin icrasına başlanılması mərasimlərinə qatılıblar. Elə bu günlərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonuna növbəti səfərləri çərçivəsində burada çoxsaylı tədbirlərə qatılıblar və inşası tamamlanan beynəlxalq səviyyəli hava limanında yaradılan şəraitlə tanış olublar. Rayonun ərazisində infrastruktur obyektlərinin tikintisi ilə yanaşı, tarixi abidələrin bərpasını əhatə edən layihələrin də icrasına start verilib. Ermənilərin törətdikləri vandalizm əməllərini kəskin qınayan Prezident İlham Əliyev bildirib ki, burada dağıdılmış bütün abidələr bərpa olunacaq.

Zəngilan rayonunun əsrarəngiz təbiətinə vurlan ziyanın aradan qaldırılması, xüsusilə də buradakı Bəsitçay qoruğunun bərpası dövlət başçısının diqqət mərkəzində saxladığı məsələdir. Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın işğaldan azad olunmuş ərazilərə səfərləri çərçivəsində Bəsitçay qoruğunda çinar ağacları əkmələri və Bəsitçaya balıq buraxmaları bu istiqamətdə atılan ilk addım oldu. 20 oktyabr 2021-ci il tarixində isə Prezident İlham Əliyev Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sənədə əsasən, qoruğun fəaliyyətinin təşkil edilməsi üçün bir sıra zəruri tədbirlərin görülməsi nəzərdə tutulur. Xatırladaq ki, Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılıb. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Qoruğun ərazisində ermənilərin kəsib doğradıqları ağacların yaşı təqribən 200-300 ilə bərabər idi.

Əlamətdar haldır ki, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışa məhz Zəngilan rayonunda start verilib. Rayonun Ağalı kəndində müasir yanaşmalar əsasında inşa olunan ilk “Ağıllı kənd”ə artıq bir neçə mərhələdə sakinlərin köçürülməsi təmin olunub. Burada 27 il ərzində ağır məcburi köçkünlük taleyi yaşayan sakinlər üçün hər cür rahatlıqlar təmin edilib. Qeyd edək ki, işğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1 504 nəfər). Doğma yerlərə qayıdan ağalılar bunu həyatlarının ən xoşbət anları kimi dəyərləndirirlər.

***MÜBARİZ***

# Qonşu dövlətlərin normal əlaqələri...

## Bütövlükdə, regionun inkişafı üçün böyük fayda verir

Azərbaycanın xarici siyasətində qonşu dövlətlərlə əlaqələrin inkişafı mühüm yer tutur. Ölkəmizin qonşularından biri qardaş Türkiyədir. Bu gün Azərbaycanla Türkiyənin münasibətləri “Bir millət, iki dövlət” prinsipinə əsaslanır. Hazırda hər iki dövlətin təşəbbüsləri Cənubi Qafqazın sülh və əməkdaşlıq məkanına çevrilməsinə xidmət edir. Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsi Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın yürütdüyü uğurlu siyasətin nəticəsidir. Eləcə də, hər iki ölkənin rəhbəri müxtəlif beynəlxalq tədbirlərdə həmişə bir birimizə birmənalı olaraq qarşılıqlı dəstək verməyin əsl örnəyini nümayiş etdiriblər. Bütövlükdə, hər bir sahədə inkişaf edən Azərbaycan-Türkiyə dostluğu və strateji tərəfdaşlığı dünya üzrə unikal bir nümunəyə çevrilib. Dövlət başçıslarımız arasında imzalanmış Şuşa Bəyannaməsi isə münasibətlərimizin ən yüksək zirvəsidir.




Oktyabrın 18-də Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Türkiyənin xarici işlər naziri Hakan Fidanla görüşü də məhz dostluq və qardaşlığın göstəricilərindən biridir. Görüşdə ikitərəfli strateji müttəfiqlik münasibətlərinin gündəliyi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, regionda baş verən son proseslər, eləcə də Azərbaycan-Ermənistan arasında sülh gündəliyinin perspektivləri müzakirə olunub.

İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının Şuşada keçirilmiş 27-ci iclasında müzakirə edilən məsələlər və iki ölkənin ilin sonunadək çoxtərəfli formatda keçiriləcək tədbirlərdə iştirakı ilə bağlı fikir mübadiləsi aparılıb. Nazirlər, həmçinin geniş regionda baş verən prosesləri müzakirə ediblər.

Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatının İcraiyyə Komitəsinin nazirlər səviyyəsində keçirilən növbədənkənar iclasında iştirakı çərçivəsində İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir-Abdullahian ilə də görüşüb. Görüş zamanı iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, çoxtərəfli regional əməkdaşlıq məsələləri, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub. Son zamanlar iki ölkə arasında artan ikitərəfli təmasların, ikitərəfli iqtisadi komissiya çərçivəsində keçirilmiş görüşlərin əhəmiyyəti qeyd olunub. Bu təmasların iki ölkə arasında gündəlikdə duran bəzi məsələlərin həlli üçün də vacib olduğu bildirilib.

Ceyhun Bayramov postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin gündəliyinin perspektivləri, habelə Qarabağ bölgəsində görülən antiterror tədbirlərindən sonra bölgədə həyata keçirilən işlər barədə ətraflı məlumat verib. Sülh gündəliyinin irəlilədilməsi istiqamətində yaranmış imkanlardan bəhs edən nazir xüsusilə bölgədə nəqliyyat və kommunikasiyaların inkişafı və genişləndirilməsi istiqamətində bu il oktyabrın 6-da “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu”nun imzalanmasının əhəmiyyətini qeyd edib.

Eləcə də ölkəmizin bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi, regional əməkdaşlığın təşviqində qərarlı olduğu diqqətə çatdırılıb. Görüşdə, həmçinin digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Bununla da, Azərbaycan mehriban qonşuluq siyasətinin davam etdirilməsinə sadiqliyini bir daha nümayiş etdirir. Qonşu ölkələr arasında münasibətlərin inkişafı bütövlükdə regionda əməkdaşlıq və təhlükəsizlik mühiti  üçün olduqca faydalıdır.

***Nardar BAYRAMLI***

# Azərbaycanın mövqeyi dəyişməzdir

## Humanitar normalara əməl olunmalıdır

Azərbaycan hər zaman humanizm prinsiplərinə sadiqdir və bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edir. Oktyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərinə işgüzar səfəri çərçivəsində İsrail-Fələstin münaqişə zonasında baş verən son hadisələrlə bağlı İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İcraiyyə Komitəsinin nazirlər səviyyəsində keçirilən növbədənkənar iclasında çıxış edərkən dövlətimizin bu mövqeyini bir daha səsləndirib. İclasda bölgədəki təhlükəsizlik vəziyyətinin ciddi şəkildə pisləşməsi ilə nəticələnən son hadisələrin narahatlıq doğurduğunu bildirən Ceyhun Bayramov ölkəmizin hərbi əməliyyatların və eskalasiyanın dayandırılmasına çağırış etdiyini diqqətə çatdırıb. Xüsusilə qadın və uşaqların da daxil olduğu mülki əhali arasında artan itkilərlə bağlı qurbanların ailələrinə başsağlığı ifadə olunub, yaralananlara şəfa arzulanıb. Dinc insanların həyatına qarşı təhlükənin, habelə mövcud vəziyyətin gərginləşdirilməsinin qarşısının alınması istiqamətində mülki və infrastruktur obyektlərinin, habelə müqəddəs yerlərin qorunmasının vacibliyi vurğulanıb. Münaqişə coğrafiyasının mümkün genişlənməsi ilə bağlı xəbərlərin narahatlıq doğurduğu, bu xüsusda, mövcud vəziyyətin aradan qaldırılması məqsədilə sülh danışıqlarına təhdid törədən addımlara qarşı beynəlxalq ictimaiyyətin birgə səylərinin əhəmiyyəti qeyd olunub.




İslam həmrəyliyinə hər zaman sadiq qalan ölkəmizin Fələstin xalqının dövlətçilik mübarizəsini dəstəklədiyini qeyd edən nazir Ceyhun Bayramov Azərbaycanın beynəlxalq hüququn normaları, habelə müvafiq BMT qətnamələrinə uyğun olaraq İsrail-Fələstin münaqişəsinin Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olması ilə iki dövlət prinsipi əsasında həllinə tərəfdar olduğunu qeyd edib. Münaqişənin nəticələrinin aradan qaldırılması istiqamətində Azərbaycanın səylərindən bəhs edən nazir ölkəmizin fələstinli qaçqınlara dəstək məqsədilə BMT-nin Yaxın Şərq Agentliyinə 1,6 milyon dollar maliyyə töhfəsi verdiyini diqqətə çatdırıb.

Xüsusilə Qoşulmama Hərəkatına sədrliyimiz dövründə ölkəmizin Fələstin probleminə xüsusi diqqət yetirdiyi, bu xüsusda, Hərəkatın Fələstin üzrə Nazirlər Komitəsinin işinin gücləndirilməsi istiqamətində fəaliyyət göstərdiyi bildirilib. Nazir Ceyhun Bayramov bundan sonra da Fələstin probleminin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə həllinə nail olmaq üçün səylərimizi davam etdirəcəyimizi bildirib.

Həmin gün Ceyhun Bayramov Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Xəlifə Şahin Əlmarar ilə də görüşüb. Görüşdə tərəflər arasında Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli və çoxtərəfli müstəvidə mövcud əməkdaşlıq gündəliyi, energetika və iqtisadi sahədə əməkdaşlıq məsələləri, İsrail-Fələstin münaqişə zonasında baş verən son hadisələr ətrafında fikir mübadiləsi aparılıb.

İki ölkə arasında yüksək səviyyəli siyasi dialoqun mövcud səviyyəsindən məmnunluq ifadə olunaraq qarşılıqlı yüksək səviyyəli səfərlərin həyata keçirilməsinin vacibliyi vurğulanıb. Ceyhun Bayramov qarşı tərəfə Ermənistanın son hərbi-siyasi təxribatlarından irəli gələn təhdidlər, Azərbaycanın erməni silahlı qüvvələrinə və ərazimizdəki qondarma rejimə qarşı həyata keçirdiyi antiterror tədbirlərini şərtləndirən amillər və aparılan tədbirlərdən sonra bölgədəki cari vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq kəsb edən digər regional və beynəlxalq məsələləri müzakirə edib.

***N.BAYRAMLI***

# Neft, qaz, indi isə elektrik enerjisi ixracı...

Müstəqilliyimizin ilk illərində Azərbaycanda elektrik enerjisi ilə təchizat sahəsində vəziyyət arzuedilən deyildi. Respublikamızda istehsal həcmləri iqtisadiyyatın və əhalinin istehlakını qarşılayacaq səviyyədən çox aşağı idi. Mövcud generasiya obyektləri az olmaqla yanaşı, həm də fiziki və mənəvi cəhətdən köhnəlmişdi. Ötürücü və paylayıcı şəbəkələrdə də tez-tez problemlər yaşanırdı. Son 20 ildə Prezident İlham Əliyevin bu sahənin inkişafına göstərdiyi güclü siyasi iradə, onun imzaladığı Fərman və sərəncamlar əsasında böyük həcmlərdə investisiya qoyuluşu hesabına vəziyyəti köklü şəkildə dəyişmək mümkün olub. Aparılan ardıcıl islahatlar, görülən tədbirlər nəticəsində Azərbaycanın elektrik enerjisini idxal edən ölkədən ixracatçıya çevrilməsi son dərəcə qürurvericidir.

***M.ABDULLAYEV***

## Yeni generasiya güclərinin yaradılması

Son 20 ildə respublikamızın enerji müstəqilliyinin təmin olunmasında, Azərbaycanın ixracatçı ölkəyə çevrilməsində davamlı olaraq yeni generasiya güclərinin yaradılması müstəsna rol oynayıb. Bəhs olunan dövrdə ölkəmizdə təxminən 30 elektrik stansiyası tikilərək istifadəyə verilib.  Onların arasında böyük stansiyalardan “Cənub” (təxminən 800 meqavat), “Səngəçal” (300 meqavatdan çox), “Sumqayıt” (525 meqavat), “Şimal-1” (400 meqavat), “Şimal-2” (400 meqavat) kimi infrastruktur obyektlərini xüsusi fərqləndirə bilərik. Eyni zamanda, 2020-ci il 25 iyun tarixində “Azərbaycan” İstilik Elektrik Stansiyasının 330 və 500 kilovoltluq açıq paylayıcı qurğuları, 8 enerji bloku, İdarəetmə Dispetçer Mərkəzi, stansiyanın əsas və köməkçi sahələri, bina və qurğuları əsaslı yenidənqurmadan sonra Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Əsaslı şəkildə bərpadan sonra İES-in 2400 meqavat generasiya gücü bərpa edilib və onun ömrü 50 ilədək uzadılıb. Yaradılan yeni infrastruktur obyektlərinin sayəsində Azərbaycanın hazırkı ümumi elektrik enerjisi istehsalı gücünü 7954 MVt-a çatdırmaq mümkün olub. Energetika Nazirliyindən “Yeni Azərbaycan”a verilən məlumata əsasən, 2023-cü ilin yanvar-sentyabr aylarında elektrik enerjisinin istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 28,2 mln. kVt·st artaraq 21 538,6 mln. kVt·st təşkil edib.



## İxrac həcmləri artır

Ölkəmiz 2023-cü ilin ötən 9 ayında 1 841,8 mln. kVt·st elektrik enerjisi ixrac edib. Bu, illik müqayisədə 2,3% çoxdur. Qeyd edək ki, 2022-ci ilin müvafiq dövründə Azərbaycan 1,8 mlrd. kVt-sat elektrik enerjisi ixrac edib. KİV-ə açıqlama verən sabiq maliyyə naziri Fikrət Yusifov respublikamızdan elektrik enerjisinin ixracının artmasını milli iqtisadiyyatımızın genişlənməsi və qeyri-neft sektorunun dinamik inkişafı kontekstində dəyərləndirib. Son 20 ildə Azərbaycanın iqtisadiyyatının 4 dəfədən çox böyüyünü bildirən  Fikrət Yusifov vurğulayıb: “Bu dövrdə iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunan Ümumi Daxili Məhsulun nominal həcmi 16 dəfəyə qədər, dövlət büdcəsinin gəlirləri 30 dəfəyə qədər, Dövlət Neft Fondunun strateji valyuta ehtiyatları 67 dəfədən çox artıb. Bu rəqəmlər Azərbaycan iqtisadiyyatının son 20 ildəki ümumi mənzərəsini əks etdirən əsas göstəricilərdir”.

Sabiq nazir bildirib ki, ötən 20 il ərzində ölkə iqtisadiyyatın real sektorunun üstün artımı təmin edilməklə, qeyri-neft sektorundan ixracın həcmi də sürətlə artıb. O, fikirlərinə davam edərək vurğulayıb: “2022-ci ildə real sektordan ixracın həcmi 2002-ci illə müqayisədə 12 dəfəyədək artaraq ilk dəfə olaraq 3 milyard ABŞ dollarını ötə bildi. Son illər Azərbaycanda elektrik enerjisi istehsalının və onun ixracının sürətli artımı baş verir. Biz artıq regionun ən etibarlı elektrik enerjisi təchizatçılarından birinə çevrilə bilmişik. Energetika Nazirliyinin məlumatlarına nəzər salmaq yetərlidir ki, son 14 ildə elektrik enerjisi ixracı sahəsində hansı inqilabi dəyişikliklərin baş verdiyini əyani şəkildə görə bilək. 2022-ci ildə Azərbaycan $121 milyon 598,37 min dəyərində 1 milyard 711 milyon 432,88 min kVt.saat elektrik enerjisi ixrac edib. Ölkəmizdən  2022-ci ildə Rusiyaya $3 milyon 644,23 min dəyərində 91 milyon 529,56 min kVt.saat, Gürcüstana - $33 milyon 213,97 min dəyərində 551 milyon 878,8 min kVt.saat, Türkiyəyə - $79 milyon 267 min dəyərində 964 milyon 453,7 min kVt.saat, İrana - $5 milyon 473 min dəyərində 103 milyon 571,21 min kVt.saat elektrik enerjisi ixrac olunub”.

## Yeni enerji dövrünə keçid

Yaranan qlobal çağırışlara uyğun olaraq Azərbaycan artıq enerji siyasətinin yeni mərhələsinə - “yaşıl enerji” dövrünə qədəm qoyub. Ekspertlərin bildirdiklərinə görə, alternativ mənbələrdən enerji istehsalı növbəti beş ildə dünya üzrə 50 faiz artaraq 2025-ci ildə elektrik istehsalının 33 faizini təşkil edəcək. Ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 27000 MVt, o cümlədən, külək enerjisi üzrə 3000 MVt, Günəş enerjisi üzrə 23000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Son illərdə bu potensialdan səmərəli şəkildə istifadə olunması məqsədilə xarici sərmayələr cəlb edilməklə bir neçə layihənin icrasına başlanılıb. “Bərpa olunan enerji resurslarının yetərincə geniş olduğu ölkəmiz “yaşıl enerji” istehsalını və onun ixracını sürətlə artırmaq kimi hədəflər müəyyən edib. Bu istiqamətdə atılan ən real addımlardan biri 2022-ci ilin dekabr ayında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi ilə bağlı Strateji Tərəfdaşlıq sazişinin imzalanması oldu. Saziş Azərbaycan və Rumıniya arasında “yaşıl enerji”nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi layihəsinin reallaşdırılmasını təmin edəcək. Bu kabellə ötürülən elektrik enerjisi daha sonra Macarıstana və Avropa nəqletmə sistemi vasitəsilə qitənin digər hissəsinə nəql ediləcək.

Beləliklə, Azərbaycan Avropanın yalnız qaz təchizatında deyil, elektrik enerjisi təchizatında da layiqli yer alacaq. Bu isə Azərbaycana iqtisadi dividendlərlə yanaşı, siyasi dividendlər də qazandıracaq”, - deyə Fikrət Yusifov bildirib.

# 20 oktyabr 1981-ci il...

## Milli energetikamızın inkişafında yeni mərhələnin başlanğıcı

## Həmin gündən 42 il ötür

Artıq 19 ildir ki, Azərbaycan energetikləri 20 oktyabrı öz peşə bayramları günü kimi qeyd edirlər. Digər əlamətdar cəhətləri ilə yanaşı, bu günün təqvimdəki xüsusi yeri Azərbaycan dövlətinin enerji sektorunda əldə etdiyi nəticələrin ümumiləşdirilərək təhlilə cəlb edilməsi, bu sahədə yeni imkan və perspektivlərin nəzərdən keçirilməsi baxımından da yeni bir fürsətdir. Prezident İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli Sərəncamı ilə bu tarixin ölkəmizdə Energetiklər Günü kimi təsis edilməsi isə milli energetika salnaməmizin daha bir şanlı səhifəsi, ölkə rəhbərliyinin bu sahədə çalışan insanların fədakar əməyinə verdiyi böyük dəyərin ifadəsidir.

Ümumilikdə, Xəzərin ölkəmizə aid sektorundakı zəngin karbohidrogen ehtiyatları və həmin resursların alternativ marşrutlarla dünya bazarlarına çatdırılması istiqamətində həyata keçirdiyi müstəqil enerji siyasəti hesabına Azərbaycan bu gün regionda və dünyada geosiyasi mövqeyini xeyli möhkəmləndirib, transmilli, qlobal əhəmiyyətli enerji layihələri sayəsində təhlükəsizlik, sabitlik və inkişaf məkanına çevrilib. Milli enerji sektorunu hər cür asılılıqdan çıxarmaqla özünün enerji təhlükəsizliyini tam təmin etmiş Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyinə, enerji mənbələri və marşrutlarının şaxələnməsinə töhfə verən iri enerji mərkəzi statusunda çıxış edir.

### Stabil enerji mənbəyimizin inkişaf tarixi

Energetiklər Günü Azərbaycanın həyatında xüsusi əhəmiyyət kəsb edən əlamətdar bir hadisəyə əsaslanır. Belə ki, düz 42 il əvvəl, 1981-ci il oktyabrın 20-də "Azərbaycan" İstilik Elektrik Stansiyasının (İES) birinci enerji bloku istifadəyə verilib, bununla da Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsası qoyulub.

Müstəqillik dövründən əvvəl mərkəzləşdirilmiş fondlardan respublikaya vəsait cəlb etmək çox böyük çətinliklərlə başa gəlirdi. Ancaq bütün bunlara baxmayaraq, Heydər Əliyevin fəaliyyəti nəticəsində 1971-ci ildə bu stansiyanın tikintisi haqqında qərar qəbul edildi, Azərbaycana mərkəzləşdirilmiş fondlardan böyük vəsait qoyulmağa və stansiyanın tikilməsinə başlandı. Hələ 1981-ci ildə stansiyanın birinci bloku istismara verildi. Bu stansiyanın tikintisinə xüsusi əhəmiyyət verildi və qalan 7 blok da inşa edildi.



### Görülən işlər, yaradılan infrastruktur layihələri

Düzdür, energetika sistemimiz zaman keçdikcə köhnəlmişdi, amma yenə də öz istismar müddətini uzada-uzada davam edirdi. O illərdə böyük böhranla üz-üzə idik, bir çox hallarda elektrik enerjisi kəsilirdi, rayonlarda, ümumiyyətlə, elektrik enerjisi fasilələrlə verilirdi. Bütün bunları aradan qaldırmaq üçün isə bu stansiya xüsusi əhəmiyyət daşıyırdı. 2018-ci ilin iyulun 2-dən 3-nə keçən gecə Azərbaycanda enerji böhranı baş verdi. Bu böhran Azərbaycan İES-də baş verən qəza nəticəsində olmuşdu. Qəzadan sonra ölkə rəhbərinin göstərişi ilə kadr dəyişikliyi edildi, "Azərenerji"nin rəhbərliyi möhkəmləndirildi, təlimatlar verildi. "Azərbaycan İstilik Elektrik Stansiyası"MMC-nin yenidən qurulması, reabilitasiyası proqramı təsdiq olundu. Cəmi 2 il ərzində - 2020-ci ildə illərdən bəri köhnəlmiş, istismar müddətini başa vurmuş avadanlıqlar yenisi ilə əvəz olundu. Görülən işlər, yaradılan infrastrukturlar sayəsində stansiya müasirləşdi, gözəlləşdi və etibarlılığı artdı. 2400 meqavat generasiya gücü bərpa edildi, kanal tikildi, qəza baş verən yarımstansiyalar yenidən quruldu, müasir idarəetmə mərkəzi yaradıldı. Beləliklə, stansiyanın ömrü ən azı 20-30 il, bəlkə də 50 il uzadıldı.



### "Azərbaycan" İES 3 ölkəni işıqlandırır

Azərbaycan 1990-cı illərdə bəzi hallarda xaricdən elektrik enerjisi alırdı. İndi isə ölkəmiz enerjini ixrac edir. Özü də bir ölkəyə yox, 3 ölkəyə - Türkiyə, Gürcüstan və zərurət yarandıqda Rusiyaya elektrik enerjisini ixrac edir. Bundan sonra da ixracın daha da artırılması və ölkəmizin artan sənaye potensialının enerji ilə təmin edilməsi prioritet məsələlərdən biridir. Çünki əhali, sənaye, biznes fəaliyyəti artır - bütün bunlar da öz növbəsində enerji tələb edir. Hazırda "Azərbaycan" İES ölkənin elektrik enerjisinə olan tələbatının demək olar ki, yarısını ödəyir. Stansiyada istehsal edilən elektrik enerjisi respublikanın enerji sisteminə elektrik verilişi xətləri ilə ötürülür.

*Günel ABBAS*

# Ulu Öndər müstəqilliyimizin əbədiliyini təmin edib

## Qəbələ rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Qəbələ rayon təşkilatı oktyabr ayının 19-da tədbir keçirib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Sonra rayon Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.



YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov hər zaman azərbaycanlı olması ilə fəxr edən, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünyaşöhrətli siyasətçi və böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində Vətən və xalq qarşısında misilsiz xidmətləri, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi barədə məlumat verib. O bildirib ki, ulu öndər Heydər Əliyev xalqımızın rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev söyləyib ki, bu gün Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, dinamik sosial-iqtisadi inkişafı, dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirməsi məhz ulu öndər Heydər Əliyevin ideyalarının nəticəsidir. Bu gün Prezident İlham Əliyev tərəfindən ulu öndərin siyasəti qloballaşan dünyanın tələblərinə uyğun uğurla davam etdirilir və müasir həyatımızın bütün sahələrində yüksək nailiyyətlər qazanılır.

YAP İdarə Heyətinin üzvü Samir Cəfərov ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən, müstəqil Azərbaycan dövlətinin inkişafı naminə müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Yeni Azərbaycan Partiyasının qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan inkişaf edir, yeni nailiyyətlərə imza atır.

Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədr müavini Ramil Həsən deyib ki, ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dönəmlərdə liderlik missiyasını layiqincə yerinə yetirib. Onun uzaqgörən və məqsədyönlü siyasəti sayəsində müstəqilliyimizin dönməzliyi təmin edilib və Azərbaycan böyük intibah yoluna qədəm qoyub.

Partiya veteranı, Qəbələ Ağsaqqallar Şurasının üzvü Tahir Hacıyev, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktor müavini Reyhan Məmmədova və rayonun Kürd kənd orta məktəbinin müəllimi Ümüdvar Həsənov bildiriblər ki, Azərbaycanın müstəqil, suveren dövlət kimi inkişafında və bu gün dünya birliyində layiqli yer tutmasında Heydər Əliyev ideyalarının, onun siyasətinin əvəzsiz rolu var.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

# Millət vəkilləri rədd edir

## Niderland və İspaniya parlamentlərinin əsassız bəyanatları erməni lobbisinin dezinformasiyası üzərində qurulub

*Günel ABBAS*

Məlum olduğu kimi, 2023-cü il oktyabrın 12-də Niderland Krallığı Parlamentinin Nümayəndələr Palatası, oktyabrın 17-də isə İspaniya Senatı özünün keçirdiyi plenar iclasında anti-Azərbaycan xarakterli qətnamə qəbul edib. Heç şübhəsiz bu qətnamələr qərəzli, obyektivlikdən uzaq şəkildə qəbul edilmiş sənədlərdir və birbaşa ölkəmizi hədəf alıb. Eləcə də sözügedən parlamentlər bu qətnamələri qəbul edərək ədalətsiz mövqe nümayiş etdirməklə yanaşı, həm də ermənipərəstlik mövqeyindən çıxış ediblər.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi hər iki ölkə parlamentinin qəbul etdiyi qərəzli sənədi şiddətlə qınayan bəyanat qəbul edib. Müvafiq parlamentlərarası əlaqələr üzrə işçi qrupları birtərəfli bəyanatı qətiyyətlə rədd edib.

Azərbaycan-Niderland parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Vüqar Bayramov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, sözügedən sənədlərdə Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı həqiqət və faktlar nəzərə alınmayıb, regionda mövcud olmuş münaqişənin kökündə dayanan, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, onun ardınca ölkəmizə münasibətdə törədilmiş hərbi işğal və Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qoyulması tamamilə diqqətdən kənar buraxılıb: "Eyni zamanda, Azərbaycanın 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin məram və məqsədləri təhrif edilərək, ölkəmizə qarşı əsassız iddialar səsləndirilib.

Bu mənada, həmin tədbirlərin Azərbaycana qarşı davam edən hərbi təhdidlərin aradan qaldırılması və qanunsuz hərbi birləşmələrin mövcudluğuna son qoyulmasına yönəldiyi gözardı edilib. Həmçinin Qarabağ regionunun erməniəsilli sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyası istiqamətində atılan addımlara lazımi qiymət verilmədən, regiondakı gələcək davamlı sülh üçün əlavə maneələr yaradılıb. Bəyanatda da qeyd etdiyimiz kimi, ölkəmizə qarşı nümayiş etdirilən bu ədalətsiz yanaşmanı qətiyyətlə rədd edir və bunu Niderland Krallığı Parlamentinin Nümayəndələr Palatası daxilində demokratik dəyərlərin iflasa uğramasının bariz nümunəsi kimi qəbul edirik".

**İspaniya senatının bəyanatı erməni lobbisinin dezinformasiyası üzərində qurulub**

Azərbaycan-İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Kamran Bayramovun sözlərinə görə, İspaniya senatı Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 il davam etmiş işğalına, 1 milyondan artıq soydaşımızın Ermənistanın etnik təmizləmə siyasəti ilə üzləşərək, öz doğma torpaqlarından didərgin salınmasına, şəhərlərimizin, kəndlərimizin dağıdılmasına, tarixi, mədəni və dini abidələrimizin yerlə-yeksan edilməsinə bu illər ərzində bir dəfə də olsun münasibət bildirməyib: "Bu səbəbdən indi həqiqətdən uzaq iddialarla "ittihamçı" rolunda çıxış etməsi öz absurdluğu baxımından ciddi suallar doğurur. İspaniya Senatının qəbul etdiyi bəyanatın mətni onun bölgədə mövcud olan reallıqlardan nə dərəcədə uzaq olduğunu, erməni lobbisinin dezinformasiyası üzərində qurulduğunu bariz şəkildə nümayiş etdirir.

Biz bəyanatda da qeyd etmişik ki, Azərbaycan dövlətinin həyata keçirdiyi antiterror tədbirləri məhz regional sülh, təhlükəsizlik və sabitlik qarşısında dayanan ən böyük maneəni - aqressiv separatizmi aradan qaldırdı. Bu gün Azərbaycan hökuməti Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası, Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli istiqamətində tədbirləri uğurla davam etdirir. Bölgəyə səfər etmiş BMT-nin ixtisaslaşmış qurumlarının nümayəndələrinin hesabat və bəyanatları da bunu təsdiq edir.



Digər bir düşündürücü hal isə bundan ibarətdir ki, nə qədər paradoksal olsa da, separatizmdən əziyyət çəkən İspaniya dövlətinin Senatı belə bir bəyanatı qəbul etməklə, ərazi bütövlüyü və suverenlik kimi prinsiplərə hörmətsizlik nümayiş etdirir, aqressiv separatizmə tam şəkildə dəstək göstərməklə, regionumuzda uzunmüddətli sülh və sabitliyin bərqərar olması istiqamətində göstərilən səylərə mane olur. Azərbaycan-İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu olaraq, İspaniya Senatının bu bəyanatına qəti etirazımızı bildiririk", - deyə deputat qeyd edib.

# Qınaq və çağırış!

## Qərbi Azərbaycan İcması Avropa İttifaqına və BFT-a səsləndi

*Nardar BAYRAMLI*

Qərbi Azərbaycan İcması Avropa Şurasının Nazirlər Komitəsinin iclasında Avropa İttifaqının (Aİ) 2023-cü il oktyabrın 18-də verdiyi anti-Azərbaycan bəyanatına etiraz edib. Bununla bağlı İcmanın bəyanatında bildirilib ki, biz, Ermənistandan qovulmuş azərbaycanlıları təmsil edən Qərbi Azərbaycan İcması olaraq, Avropa Şurasının Nazirlər Komitəsinin iclasında Avropa İttifaqının (Aİ) 2023-cü il oktyabrın 18-də verdiyi anti-Azərbaycan bəyanatını şiddətlə qınayırıq: "İlk öncə vurğulayaq ki, bu bədnam bəyanatı məhz 18 Oktyabr - Azərbaycan Dövlət Müstəqilliyinin Bərpası Günündə verməklə Aİ ölkəmizə və xalqımıza qərəzini simvolik şəkildə ifadə etmişdir".

Qeyd edilib ki, Avropa İttifaqının sənədi qərəzlidir, ayrı-seçkilik xarakteri daşıyır, sülhə mane olur və Ermənistanın törətdiyi müharibə cinayətlərinə və insanlıq əleyhinə cinayətlərə haqq qazandırır. "İlk öncə vurğulamaq istərdik ki, qayıdış hüququnu ancaq Qarabağ ermənilərinə şamil etməklə və Ermənistandan qovulmuş azərbaycanlıların bu hüququnu inkar etməklə Aİ azərbaycanlılara qarşı etnik əsasda ayrı-seçkiliyini açıq şəkildə göstərmişdir. Bundan əlavə, münaqişə zamanı törədilmiş çoxsaylı hərbi cinayətlərə baxmayaraq, Aİ-nin "bütün Qarabağ erməniləri" üçün amnistiya tələbi bizi dərindən narahat edir. Müharibə cinayətlərinə amnistiyanın verilməsi təkcə ədalət və hesabatlılıq prinsiplərini pozmur, həm də cəzasızlıq mühiti yaratmaqla regionda davamlı sülh və barışığı mümkünsüz edir. Aİ-nin müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər üçün amnistiya tələb etməsi bu qurumda irqçi mentalitetin ayaq açmasını və humanizm dəyərlərinin aşınmasını, eləcə də onun regionda sülh və ədalətin bərqərar olmasında maraqlı olmadığını göstərir",-deyə İcma vurğulayıb.

Diqqətə çatdırılıb ki, bəyanatda Azərbaycan yerli əhalinin insan hüquqlarını və mədəni irsini qorumağa çağırılsa da, Ermənistandan və işğal olunmuş Azərbaycan ərazilərindən qovulmuş azərbaycanlıların hüquqları və mədəni irsi ilə bağlı Ermənistanın məsuliyyəti barədə heç bir çağırış edilmir. Bu, Aİ-nin qərəzli və anti-Azərbaycan yanaşmasının növbəti sübutudur. Nəhayət, bəyanatda Azərbaycan Ermənistanın ərazi bütövlüyünə sadiqliyini təsdiq etməyə çağırıldığı halda, Ermənistana oxşar çağırış edilmir. Ermənistanın Azərbaycan ərazilərini onilliklər ərzində işğal altında saxlaması və Aİ-nin ona göz yumması faktını nəzərə alsaq, Aİ bu çağırışı ilə faktiki olaraq Ermənistanı Azərbaycana qarşı növbəti hərbi təcavüzə cəsarətləndirir.

"Aİ-nin bu bəyanatı və son dövrlər nümayiş etdirdiyi mövqe onun sülh üçün tərəfdaş kimi etibarını və rolunu sarsıtmışdır. Biz Aİ-ni anti-Azərbaycan yanaşmasından əl çəkməyə, insanların hüquq və ləyaqət baxımından bərabərliyi, eləcə də dövlətlərin suveren bərabərliyi prinsiplərinə və Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüquqlarına hörmət etməyə çağırırıq", - deyə İcmanın bəyanatında vurğulanıb.

Qərbi Azərbaycan İcması Beynəlxalq Frankofoniya Təşkilatının baş katibinin açıqlamalarını da pisləyib. Qeyd edilib ki, Ermənistan və Fransa Beynəlxalq Frankofoniya Təşkilatını (BFT) qatı anti-Azərbaycan platformasına çevirmək cəhdlərini davam etdirir. Bu xüsusda, BFT-nin baş katibinin İrəvanda verdiyi son açıqlamalar narahatlıq doğurur.

Bildirilib ki, Qarabağda erməni mədəni irsinin qorunmasının vacibliyini qabardan baş katibin Ermənistanda Azərbaycan xalqına mənsub olan mədəni irsin acınacaqlı vəziyyətinə toxunmaması açıq-aşkar qərəz və ikili standartların təzahürüdür.

Qərbi Azərbaycan İcması BFT-nin baş katibini Ermənistan və Fransanın Azərbaycana qarşı çirkin fəaliyyətində alətə çevrilməməyə və Azərbaycanla bağlı açıqlamalarında ehtiyatlı və məsuliyyətli olmağa çağırıb.

# I Qurultaydan VI Qurultaya...

## Azərbaycan Qadınlarının ictimai-siyasi həyatında dönüş mərhələsi



26 illik fasilədən sonra 1998-ci il sentyabrın 14-də Azərbaycan Qadınlarının I Qurultayı baş tutmuşdu. Bu gün həmin tarixdən nə az, nə çox düz 25 il keçir. İki gün davam edən qurultayda respublika qadınlarını iki mindən çox nümayəndə təmsil edib. Onların əksəriyyəti bölmə iclaslarında çıxış edib öz ürək sözlərini cəmiyyətə çatdırmaq imkanı qazanıb.

Məhz bu qurultay Müstəqil Azərbaycan qadınlarının ictimai-siyasi həyatında dönüş mərhələsinin başlanğıcı olub. Ulu öndər Heydər Əliyev Qurultayda öz çıxışında deyib: "Hesab edirəm ki, bu Qurultay XX əsrdə Azərbaycanın tarixində ən böyük tarixi hadisələrindən biridir. Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda gələcəyin qadın hərəkatının əsasını qoyublar, qadınların cəmiyyətdə fəallığının, onların cəmiyyət və dövlətin həyatında iştirakının əsasını qoyublar. Siz bunun əsasını qoymusunuz, böyük iş görmüsünüz. Bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm".

**Heydər Əliyev demişdi ki...**

Qadınların hər zaman aparıcı qüvvə olduğunu bildirən Heydər Əliyev onların milli xüsusiyyətlərini olduqca yüksək dəyərləndirib: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə millətinə, torpağına olan hədsiz məhəbbəti və gözəlliyi, Azərbaycan xalqının milli xüsusiyyətlərinə sadiqliyi ilə tanınmışdır. Qadın ailə saxlayan bir insandır. Ona görə də, bütün qadınlar bizim cəmiyyətdə çox əhəmiyyətli rol oynayırlar. Mən bunları deyərək qadınların bizim üçün nə qədər əziz olduğunu bir daha bəyan etmək istəyirəm".

Müstəqil Azərbaycanın ilk qadınlar Qurultayı bir çox cəhətləri ilə həmişəlik yaddaşlara həkk olunub. Bundan sonra ardıcıl olaraq 2003, 2008, 2013 və 2018-ci illərdə Azərbaycan Qadınlarının qurultayları baş tutub.

Çox müsbət bir haldır ki, bu siyasət bu gün də uğurla davam edir. Bu gün qadınlar ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməklə yanaşı, dövlət qurumlarında da lazımi səviyyədə təmsil olunurlar. Bu fakt da dövlətin qadınlara göstərdiyi diqqətin bariz nümunəsidir.

**İlk Qurultaydan 25 il sonra**

Yeri gəlmişkən, oktyabrın 19-da Bakının "Gülüstan" sarayında Azərbaycan Qadınlarının VI Qurultayı baş tutub. Ölkənin bütün regionlarından olan 600-ə yaxın qadının bir araya gəldiyi Azərbaycan Qadınlarının VI Qurultayı ölkəmizdə qadın hərəkatının əsasını qoymuş Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda, ilk Qadın Qurultayının 25 ili münasibətilə keçirilib.

Qurultay çərçivəsində "Ulu Öndər Heydər Əliyevin əsas missiyası: Böyük Qayıdış", "Gender məsələləri hüquqi müstəvidə: Mövcud vəziyyət, qarşıda duran məsələlər", "Sosial-iqtisadi islahatların gender aspektləri.Formal və qeyri-formal məşğulluqda qadın təmsilçiliyi", "Qadın hüquqlarının həyata keçirilməsində çağırışlar və qlobal tendensiyalar" mövzuları üzrə 4 panel olub.

Türkiyə, Özbəkistan və Tacikistanın dövlət rəsmilərinin də qatıldığı qurultayda deputatlar, dövlət və qeyri-hökumət, eləcə də beynəlxalq təşkilatların və xarici dövlətlərin Azərbaycandakı səfirliklərinin, o cümlədən respublikanın bütün regionlarından nümayəndələr, görkəmli ictimai-siyasi xadimlər iştirak edib.

Çıxışçılar qeyd olunan məsələləri müzakirə edib, təkliflərini diqqətə çatdırıblar.

**Hər beş sahibkardan biri...**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Azərbaycan Qadınlarının VI Qurultayında çıxışı zamanı deyib ki, son 20 ildə qadınların sahibkarlıq sahəsində rolu artıb. Onun sözlərinə görə, Azərbaycanda 2022-ci il üzrə qadınların orta aylıq əməkhaqqısı kişilərin orta aylıq əməkhaqqısının 68,1 faizi-ni təşkil edib.

Baş Nazirin müavini Əli Əhmədov isə qeyd edib ki, bu gün Azərbaycan qadınları ölkənin ictimai-siyasi həyatında böyük rola sahibdir: "Ölkədə qadınların cəmiyyətdə rolunun artırılması istiqamətində işlər uğurla davam etdirilir. İndiki qadınlar 15-20 il əvvəlki qadınlarla çox fərqlənir. Onlar cəmiyyətdə və dövlət sturukturlarında geniş fəallıq göstərir. Hökumətimiz qadınlara lazımi bütün dəstəyi göstərir və göstərəcək".

Ombudsman Səbinə Əliyeva çıxışında bildirib ki, insan hüquqlarını ali dəyər kimi qəbul etmiş bütün demokratik dövlətlərdə olduğu kimi, Azərbaycanda da qadınların hüquq və azadlıqlarının təmini məsələlərinə, onların ölkənin inkişafındakı rolunun dəstəklənməsinə, gender bərabərliyinə nail olunmasına xüsusi diqqət yetirilir: "Hazırda qadın hüquqlarının müdafiəsi baxımından mühüm əhəmiyyətə malik bir sıra beynəlxalq müqavilələr ölkəmiz tərəfindən ratifikasiya edilib, bu sahədə geniş qanunvericilik bazası formalaşdırılıb, aidiyyəti beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələri qurulub".

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva çıxışı zamanı deyib ki, Azərbaycanda bu istiqamətdə müvafiq işlər görüldüyünü diqqətə çatdırıb: "Azərbaycan Qadınlarının VI Qurultayı əməkdaşlıq üçün gözəl platformadır. Düşünürəm ki, bu toplantı əməkdaşlığa töhfə verəcək". Azərbaycan qadınlarının qərar qəbul etmə prosesində fəallığının artırılmasının önəmini qeyd edən BMT rəsmisi onların öz hüquqlarının qorunmasında qətiyyətli olduqlarını diqqətə çatdırıb.

**Onunla səmimi söhbətimiz daim yaddaşımdadır**

Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva 25 il bundan əvvəl, 1998-ci ildə Azərbaycan Qadınlarının I Qurultayında Səbail rayonundan nümayəndə kimi iştirak etdiyini xatırladıb: "Unudulmaz xatirələrimi bölüşmək istəyirəm. Azərbaycan qadınları üçün möhtəşəm olan bu tədbirdə mənə ulu öndər Heydər Əliyevin unudulmaz çıxışını canlı dinləmək nəsib olmuşdu. Çıxışının sonunda özü şəxsən elan etdi ki,



tədbirdən sonra qurultayın çoxsaylı iştirakçıları ilə xatirə şəkli çəkdirəcək. Ümummilli Liderin gərgin iş qrafikinə baxmayaraq, şəkil çəkdirmək üçün qrup-qrup yaxılaşan qadınlarla səmimi söhbəti daim yaddaşımdadır".

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı Azərbaycan Qadınlarının VI qurultayında bildirib ki, bu gün Azərbaycanda hər beş sahibkardan biri qadındır: "O cümlədən, Ağdam və Cəbrayıl rayonundakı sənaye parklarında, eləcə də texnoparklarda və aqroparklarda qeydiyyatdan keçən sahibkarların bir qismi qadındır. Dövlət qadınların sahibkarlıq fəaliyyətinə böyük ümid bəsləyir. Hazırda Qarabağda və Şərqi Zəngəzurun təhsil və səhiyyə sektorlarında, eləcə də məşğulluqda da qadınlar böyük paya malikdirlər", - deyə o qeyd edib.

Yekunda müzakirə və təkliflər əsasında qətnamə qəbul olunub və Azərbaycan qadınlarının Prezidentə müraciəti səsləndirilib.

# Sülhməramlı postlarının ləğvi davam edir

*Nardar BAYRAMLI*

Sentyabr ayında Azərbaycan Ordusunun həyata keçirdiyi 24 saatlıq antiterror tədbirlərindən sonra regionda yeni vəziyyət yaranıb. Artıq separatçılar təslim olub və qanunsuz rejim özünü buraxıb. Qarabağdakı erməni sakinlərin əksəriyyəti isə könüllü şəkildə Ermənistana gedib. Rəsmi Bakı Qarabağın erməni sakinləri ilə reinteqrasiya prosesinə start verib. Artıq bəzi ermənilər Azərbaycan vətəndaşlığı almaq üçün müraciət ediblər.

Qarabağda separatizmin ləğv edilməsindən sonra Rusiya sülhməramlı kontingentinin bölgədə qalıb-qalmaması da müzakirə mövzusuna çevirilib. Xatırladaq ki, antiterror tədbirlərindən sonra sülhməramlıların bəzi postlarının ləğv olunması prosesinə start verilib. Rusiya Müdafiə Nazirliyi sülhməramlıların Əsgəran, Ağdərə, Xocavənd və Şuşa bölgələrindəki postlarını tərk etdiyini açıqlayıb. Ötən gün Rusiya Müdafiə Nazirliyi sülhməramlıların daha bir neçə müvəqqəti müşahidə məntəqəsinin ləğv olunduğunu açıqlayıb. Rusiya sülhməramlılarının ləğv olunan postları arasında Laçın-Xankəndi yolunun Şuşa rayonu ərazisindən keçən hissəsində quraşdırılan post da var. Bundan başqa, Rusiya Müdafiə Nazirliyinin məlumatında deyilir ki, "Yol hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə yol boyu 14, o cümlədən Azərbaycan tərəfi ilə əməkdaşlıq çərçivəsində 8 nəzarət-buraxılış məntəqəsi quraşdırılıb".

Qeyd edək ki, Rusiya sülhməramlılarının bölgədə yerləşdirilməsi Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanmış 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatına əsasən baş tutub. Həmin bəyanatın 4-cü bəndində qeyd olunur: "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır".

Azərbaycanın Qarabağ bölgəsində vəziyyətin dəyişməsi, dövlətimizin öz suverenliyini tam təmin etməsi rus sülhməramlılarının gələcəyi ilə bağlı haqlı suallar da yaradır. Üçtrəfli Bəyanat 3 ölkə tərəfindən imzalansa da, artıq Ermənistanın Qarabağı Azərbaycanın ərazisi kimi tanıması, bölgədə qanunsuz olaraq yaratdığı qurumun özünü buraxması, qeyri-qanuni hərbi birləşmələrin tərksilah edilməsi və digər amillər sülhməramlıların gələcəyinə yanaşmada rəsmi İrəvanın mövqeyini əhəmiyyətsiz edir. Xatırladaq ki, Qarabağda antiterror tədbirlərindən sonra Rusiya Prezidentininin mətbuat katibi Dmitri Peskov rus sülhməramlıların bölgədə qalıb-qalmaması məsələsinin Bakı ilə müzakirə ediləcəyini bildirmişdi. Bugünlərdə isə Valdayda keçirilən Beynəlxalq Diskussiya Forumunda Rusiya Prezidenti Vladimir Putin də sülhməramlıların statusundan danışıb: "Azərbaycan hesab edirdi ki, sülhməramlıların statusu ilə bağlı əlavə saziş imzalamağa ehtiyac yoxdur. Azərbaycansız saziş imzalamaq isə mənasız idi. Rusiya sülhməramlılarının missiyası atəşkəsin qorunmasına nəzarət etmək idi. Orada sülhməramlıların başqa hüquqları yoxdur". Putin Bişkekdə MDB-nin sammiti çərçivəsində keçirdiyi mətbuat konfransında isə "Rusiya sülhməramlıları formal olaraq 2025-ci ilin noyabrına kimi Qarabağdadır. Bu məsələ danışıqlar zamanı həll olunacaq" deyib.

Göründüyü kimi, bölgədə yeni vəziyyətin yaranması Rusiya sülhməramılarının fəaliyyətində də dəyişikliklərin baş verməsinə səbəb oldu. Antiterror tədbirlərindən sonra Qarabağdakı vəziyyət sülhməramlıların, ümumiyyətlə, nəzarət zonasının qalmadığını deməyə əsas verir. Hazırda Xankəndidə patrul xidmətini sülhməramlılarla birlikdə Azərbaycan hərbçiləri həyata keçirir. Hətta erməni əhalisinin bir qismi geri qayıtsa belə, eyni vəziyyət davam edəcək, çünki Qarabağda Azərbaycanın suverenliyi tam təmin olunub və müvafiq dövlət qurumları ərazidə fəaliyyətə başlayıb. Bu baxımdan, rus sülhməramlılarının vaxtından tez ərazini tərk etməsi ehtimalı ilə bağlı irəli sürülən ehtimalların reallığa çevrilməsi istisna deyil.

# İkili standartlar ayaq açıb yeriyəndə...

Ayrı-ayrı Avropa ölkələri və qurumları yeri gəldi-gəlmədi demokratiyadan danışır və bütün dünyaya birgəyaşayış dərsi keçməyə çalışırlar. Ancaq reallıqda, daha konkret ifadə etsək, son 30 il ərzində müharibə vəziyyətində olan Azərbaycana və Ermənistana münasibətdə biz başqa mənzərənin şahidi oluruq. Açıq şəkildə demək lazımdır ki, Avropada oxşar məzmunlu məsələlərə tamam fərqli prizmalardan münasibət bəslənilir. Belə yanaşmalar ikili standartların təzahürüdür və təhlükəli presedentlərə yol açır.

## Fransanın Ermənistan rəzaləti

Ayrı-ayrı Avropa ökələrinin və qurumlarının ikili standartlar nümayiş etdirmələrindən bəhs edərkən Fransanın siyasi rəhbərliyinin, parlamentinin Azərbaycana münasibətdə qərəzçiliyini xüsusi vurğulamaq lazım gəlir. Bütünlüklə güclü erməni lobbisinin girovluğunda qalan Fransa rəhbərliyi başda prezident Emmanuel Makron olmaqla Avropanın mərkəzində bir üzqarası - Ermənistan rəzaləti nümayiş etdirir. Fransa lideri tutuquşu kimi elə hey "kiçik bacı" Ermənistanın arxasında dayanacağını təkrarlayır. Ölkənin siyasi hakimiyyətinin verdiyi siqnallardan ruhlanan Fransa Senatı və Milli Assambleyası da eyni yolla gedir. Xatırladaq ki, 2020-ci ilin noyabr ayında Fransa Senatı qondarma "Dağlıq Qarabağ respublikası"nın "müstəqilliyinin" tanınması barədə qətnamə qəbul etmişdi. Fransa parlamentində oxşar məzmunlu "sənədlər", həmçinin ötən ilin sonlarında qəbul olundu.

Fransaya üzqaralığı gətirən belə faktların siyahısını uzatmaq da mümkündür. Bu ölkənin BMT Təhlükəsizlik Şurasını bir alətə çevirmək cəhdləri bu ölkənin ikili standartlar siyahısında xüsusi yer tutur. Fransanın ötən ilin dekabrında BMT TŞ-də Azərbaycan əleyhinə sənəd qəbul etdirməyə çalışması bu ölkənin Cənubi Qafqazda sülhyaratma prosesinə hansı niyyətlə qoşulmaq istəyini bir daha ortaya qoydu. Azərbaycanın beynəlxalq səviyyədə apardığı uğurlu diplomatik fəaliyyət Paris-İrəvan tandeminin cəhdlərini darmadağın elədi. Bundan dərs almayan Fransa Azərbaycanın konstitusiya quruluşunu bərpa etmək məqsədilə Qarabağ bölgəsində apardığı lokal antiterror tədbiri ilə əlaqədar BMT TŞ-nın iclasının çağırılmasını istəyib.

Fransa kimi ermənipərəst ölkələrin belə ikili yanaşmaları sadəcə, rüsvayçılıqdır. Bu qəbildən olan cəhdlərlə haqq yolu tutan, beynəlxalq prinsiplərə sadiq qalan Azərbaycanı öz yolundan çəkindirmək mümkün deyil. E.Makronun, onun komandasında yer alan məmurların, Fransa parlamentinin riyakarlığına, ağa qara deməsinə rəğmən, respublikamız hədəflərinə və milli məqsədlərinə doğru irəliləyir. Artıq Dağlıq Qarabağ, özünü buraxmaq məcburiyyətində qalan separatçı rejim qalib Azərbaycan üçün bir keçmişdir. Qarabağda suverenliyini tam təmin edən, Xankəndidə gerbini asan, bayrağını ucaldan Azərbaycan gələcəyə baxır.

## Otuz il təcəvüzkar Ermənistanın başına sığal çəkən Avropa ölkələri və qurumları




Fransa başda olmaqla bəzi Avropa dövlətlərinin, eləcə də "Amnesty İnternational", "Freedom House", "Human Rights Watch", Avropa Parlamenti kimi "beynəlxalq" təşkilatların təxminən 30 il ərzində həllini tapmayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə sərgilədikləri mövqe (əslində, mövqesizlik- red.) ikili standartlara ən bariz nümunə sayıla bilər. Biz işğal dövründə Qərbi Azərbaycanda yaradılan saxta Ermənistan dövlətinin "köhnə qitədəki" havadarları tərəfindən necə güclü şəkildə dəstəkləndiyinin şahidi olduq. İşğalçı Ermənistan üç onillik ərzində daim sülh danışıqlarında qeyri-konstruktivlik nümayiş etdirir, beynəlxalq hüquq normaları ilə bir araya sığmayan tələblər irəli sürür və daim keçmiş təmas xətti boyunca təxribatlara əl atırdı. Bu kimi davranışlarla Ermənistan, əslində, işğal nəticəsində yaranan keçmiş status kvonu sonsuzluğadək uzatmağa çalışırdı. Məhz bu səbəbə görə də 28 il davam edən danışıqlar prosesi heç bir səmərə vermirdi. Nəticə faktiki olaraq sıfır idi. BMT, ATƏT kimi aparıcı beynəlxalq təşkilatların və digərlərinin Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamə və qərarlar qəbul etməsinə, xüsusilə BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsinə baxmayaraq, Ermənistanın mövqeyində hansısa bir dəyişiklik baş vermirdi. Bunun yeganə səbəbi isə işğalçılıq siyasətini dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistanın beynəlxalq hüquq normaları çərçivəsində cəzalandırılmaması, daim işğalçı dövlətin başına sığal çəkilməsi idi. Azərbaycanın təcavüzkarın cilovlanması, ona qarşı sanksiyaların tətbiq edilməsi çağırışları cavabsız qalırdı. Sanki hər xırda məsələyə görə Azərbaycan əleyhinə qərəzli sənədlər qəbul edən Avropa qurumları, Fransa Senatı və Milli Assambleyası Ermənistanın təcəvüzkarlıq siyasətini görməzdən gəlməyə və ağızlarına su almağa and içmişdilər.

## Avropa İttifaqı "köhnə qitənin" maraqlarına qarşı

Son illərdə Azərbaycanın Avropa İttifaqı (Aİ) məkanı üçün önəmi əhəmiyyətli dərəcədə artıb. Ölkəmizlə Aİ arasında fəal enerji dialoqu qurulub. Son olaraq 2022-ci il 18 iyul tarixində Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Bu, Azərbaycanla Aİ arasında enerji dialoqunun perspektivlərinə dair yol xəritəsi sayılır. Memorandumun icrası nəticəsində respublikamızın "köhnə qitə"nin enerji təhlükəsizliyinin təmin olunmasında rolu daha da artacaq.

Bəs kasıb, dalan ölkə olan Ermənistanın Avropa üçün önəmi nədən ibarətdir? Bu ölkə "köhnə qitə"yə nə verə bilər? Sulların cavabı mənfidir. Çünki bu ölkə müttəfiqləri üçün faydasızdır və onların hansısa bir işinə yaramaq iqtidarında deyil. Lakin Aİ-nin Azərbaycan və Ermənistana münasibəti əsla adekvat deyil, əslində, "köhnə qitə"nin maraqlarına da ziddir. Aİ Azərbaycandan fərqli olaraq Ermənistana davamlı şəkildə maliyyə dəstəyi göstərir. Növbəti mərhələdə qurum Ermənistana 25 milyon avrodan çox yardım edəcək. Artıq 10,2 milyon avro ayrılıb. Daha 15 milyon avro isə yaxın perspektivdə təmin ediləcək. Hətta Avropanın özündə belə ehtiyacların qarşılanmasına xəsisliklə vəsait ayıran Aİ-nin Ermənistana bu cür səxavətlilik göstərməsi suallar doğurur.

*Mübariz FEYİZLİ*

# İnsan hüquqları müdafiəsinin problemləri

## Müharibə və postmüharibə dövründə Azərbaycan ombudsmanının fəaliyyəti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti üzrə hazırlanmışdır**

*AYSU*

Respublikamızda 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiya insan hüquq və azadlıqlarının həyata keçirilməsinə əsaslanan yeni dövlət quruculuğunun başlanğıcı oldu. Bu konstitusiya insan hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi müəyyənləşdirib. Sənədin "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlı üçüncü fəsli insan hüquqlarının geniş dairəsini əhatə edən 48 maddəni özündə əks etdirir. Azərbaycan insan hüquqları sahəsində əsas beynəlxalq hüquqi sənədlərə tərəfdir.

Məlum olduğu kimi, Konstitusiyanın 148-ci maddəsinə əsasən Azərbaycanın tərəf olduğu beynəlxalq müqavilələr Azərbaycan qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsini təşkil edir. Konstitusiyanın 151-ci maddəsinə əsasən isə Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. İnsan hüquq və azadlıqları Azərbaycan ərazisində birbaşa tətbiq gücünə malikdir.

Hüquqi dövlətin, qanunun aliliyi, insan hüquqları, demokratiya və sosial ədalət kimi fundamental əsaslarının möhkəmləndirilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 27 dekabr 2011-ci il tarixdə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul edilib. Bu xüsusda, "Milli Fəaliyyət Proqramı"nın müddəalarına əsaslanmaqla, ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV-lər, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının effektiv müdafiəsinə yeni mərhələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif müzakirələr və maarifləndirmə tədbirləri təşkil olunur.

**Ombudsmanlar səlahiyyətlərinə dair müsbət təcrübələri bölüşüblər**

İstər xaricdə, istərsə də ölkə daxilində keçirilən tədbirlərdə Azərbaycan həqiqətləri, xüsusilə I və II Qarabağ müharibələri zamanı vətəndaşlarımızın pozulmuş hüquqları dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Yeri gəlmişkən, ötən günlərdə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva "İnsan hüquqları müdafiəsinin problemləri: ombudsmanların səlahiyyətlərinə dair müsbət təcrübələrinin bölüşülməsi" mövzusunda Moskvada keçirilən VII beynəlxalq elmi-praktiki konfransda iştirak edib.

Ombudsman çıxışı zamanı bildirib ki, həm Vətən müharibəsində, həm də postmüharibə dövründə Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərinin araşdırılması məqsədilə monitorinqlər aparılır.

47 ölkənin ombudsmanlarının iştirak etdiyi tədbirdə "Müharibə və postmüharibə dövründə Azərbaycan ombudsmanının fəaliyyəti" mövzusunda çıxışı zamanı müvəkkil insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi sahəsində ombudsman təsisatlarının və milli insan hüquqları institutlarının rolunu vurğulayıb, eləcə də Azərbaycanın Ombudsman təsisatının müvafiq istiqamətdə fəaliyyəti barədə ətraflı məlumatı diqqətə çatdırıb.

Müvəkkil ölkəmizdə insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi üzrə həyata keçirilən islahatlardan bəhs edib, mandatının mövcud beynəlxalq meyarlara uyğun olaraq, aidiyyəti sahələr üzrə genişləndirilməsi ilə bağlı "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş dəyişikliklərdən söz açıb.

Son illərdə baş verən müharibə və terror aktlarının fundamental insan hüquqlarının pozulmasına, humanitar böhranın yaranmasına səbəb olduğunu qeyd edən Ombudsman otuz ilə yaxın müddət ərzində Ermənistanın işğalı altında qalmış Azərbaycan torpaqlarında törədilən müharibə cinayətləri barədə də danışıb.

Ombudsman İkinci Qarabağ müharibəsi nəticəsində beynəlxalq hüququn tələblərinə uyğun olaraq torpaqlarımızın işğaldan azad edildiyini və ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğunu diqqətə çatdırıb. O, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması faktlarını özündə əks etdirən müraciət, hesabat və bəyanatların aidiyyəti beynəlxalq təşkilatlara və insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən qurumlara ünvanlandığını qeyd edib.

Savaşların insan tələfatı ilə yanaşı, həm də onların itkin düşmələrinə səbəb olduğunu söyləyən müvəkkil Birinci Qarabağ müharibəsində 4 minə yaxın azərbaycanlının itkin düşdüyünü, onların taleyi barədə Ermənistan tərəfindən hələ də məlumat verilmədiyini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

İşğaldan azad edilmiş ərazilərimizdə Ermənistanın törətdiyi mina terroru barədə danışan S.Əliyeva mina partlayışı nəticəsində İkinci Qarabağ müharibəsindən indiyədək yüzlərlə şəxsin mina qurbanına çevrildiyini qeyd edib.

Sonda ombudsman insan hüquqlarının müdafiəsi sahəsində təsisatlar arasında münasibətlərin daha da möhkəmlənəcəyinə, səmərəli fəaliyyətin və konstruktiv dialoqun davam edəcəyinə ümidvar olduğunu bildirib.



# 19.10.2019 xəyanətinin anatomiyası...

## Əli Kərimlinin iğtişaş cəhdləri nəyə hesablanmışdı?

Qarabağ Zəfərinə, qələbəyə gedən yolda baş verən hadisələr, "döngələr", "dolanbaclar" barədə çox danışmaq olar. Amma diqqətimizi bir nüans cəlb edir - etməlidir də: 2019-cu ildə Vətən müharibəsinin başlanmasına düz bir il qalmış Əli Kərimlinin başçılıq etdiyi xəyanətkar dəstənin yenidən "aktivləşdirilməsi" göz ardı edilə bilməz. Hətta Vətən müharibəsinə bir il qalmış Kərimlinin paytaxtın mərkəzində qarşıdurmalar təşkil etmək, Azərbaycanda qarşıdurmaların olması görüntüsünü "ötürmək" niyyəti də boş yerə deyildi. 2019-cu ilin oktyabr ayında, xüsusilə oktyabrın 19-da redikül xəyanətkarların Bakı ilə, Azərbaycanla bağlı yaratmağa çalışdığı fon bundan ibarət idi - alt məqsəd isə...

Alt məqsədin özəyində təbii ki, erməni təəssübkeşliyi dayanırdı. Həm Ermənistana havdarlıq edən, həm də Əli Kərimlini maliyyələşdirən dairələr Azərbaycan dövlətinin uğurla apardığı siyasətin konturlarını, istiqamətini görürdülər. Bu yola mane olmaq, ən azından ləngitmək üçün isə bütün vasitələrdən istifadə edilirdi. Erməniпərəst mərkəzlərin oyuncağı olmağa öyrəşmiş müxalifətçilər isə ən rahat vasitə idi - onları küçələrə salaraq qarşıdurma görüntüsü yaratmaq, bunun üzərindən ölkəmizə qarşı insan hüquq və azadlıqlarının pozulması adı altında təzyiq kampaniyaları təşkil etmək, bir sözlə, dövlətin və hakimiyyətin diqqətini Qarabağa köklənməkdən yayındırmaq cəhdləri ən "prinsipial məqsəd" idi. Erməniпərəst dairələrə nökərçilik edən Kərimli və dəstəsinin hətta terror çağırışları etməkdən çəkinməməsi də yaddaşlardan silinməyib... 2019-cu ilin 8 oktyabr piketi öncəsi Əli Kərimlinin özü kimi xəyanət girdabında olan Sevinc Osmanqızının internet kanalındakı müsahibələrində kütləvi itaətsizlik çağırışları, "Sudan, Əlcəzair təcrübəsindən bəhrələnmək" məsləhətləri, insanları qanunları pozmağa, qarşıdurmalar yaratmağa yönləndirməsi ilə bağlı fikirləri həm yaddaşlarda, həm də həmin internet kuanallarının videoyazılarında durmaqdadır. Bu, açıq şəkildə ölkədə siyasi sabitliyi pozmaq, millli birliyə, həmrəyliyə qarşı hücum xarakteri daşıyırdı.

Xainliyi dövründə gah radikal dindarlara "sığınan", gah Qərbin anti-azərabycançı mərkəzlərinə üz tutan, gündə bir rəngə boyanan, kimlərinsə "baharından", kimlərinsə "yazından" ruhlandırılan Əli Kərimli 2019-cu ilin oktyabrın 19-da vətəndaş qırğını salmaqda maraqlı idi - bu faktdır. Qanuni yolla öz aksiyasını keçirməkdən boyun qaçıran, əksinə, qanunlara qarşı gəlməyi üstün tutan, şəhərin mərkəzində qeyri-sabitlik yaratmaq istəyən, asayişi qoruyan hüquq-mühafizə orqanları əməkdaşlarının qanuni çağırışlarına qarşı təxribatlar hazırlayan bu şəxsin etdikləri birbaşa xarici emissarlar tərəfindən hazırlanan planın tərkib hissəsi idi.

Əli Kərimli və ona göstəriş verənlər bu yolla sabit, inkişaf edən, dünyada nüfuz qazanan, ən əsası illərdir aparılan uğurlu siyasət nəticəsində Qarabağ münaqişəsinin həlli ilə bağlı mühüm üstünlüklər əldə etmiş Azərbaycandan qorxurdular. Əli Kərimli kimi xainlərdən istifadə edən erməniпərəst dairələr öz niyyətlərinə nail ola bilmədilər - 2019-cu ilin oktyabrında Kərimlinin təxribatlarına uymayan, öz dövlətinin maraqlarını üstün tutan xalqımız cəmisi bir il sonra bu erməniпərəstlərə ən böyük zərbəni vurdu: bir yumruğa çevrilən, dövlətinin və Prezidentinin ətrafında sıx birləşən xalqımız Qarabağı erməni işğalından azad etdi. Özünün yalanlarının içində əriyib yox olan, hətta düşərgədaşları tərəfindən belə qınanan, yalanları ifşa edilən, xəyanətləri palçıq kimi üzünə vurulan Əli Kərimli isə 2019-cu ildə olduğu kimi 2020-ci ildə və ondan sonrakı dövrlərdə də qulluq etdiyi dairələrin qarşısında "üzüqara" qaldı...

*MƏNSUR*

# Rəngli inqilabların acı meyvələri

Bu günlərdə Gürcüstanın sabiq prezidenti, hazırda həbsdə olan Mixeil Saakaşvili Ermənistanın baş naziri Nikol Paşinyana məktubla müraciət ünvanlayıb. Gürcüstanın dövlət başçısı məktubunda bir növ öz təcrübəsindən və aqibətindən çıxış etməklə Ermənistan rəhbərinə məsləhətlərini verib. Müraciətdə N.Paşinyanın hakimiyyəti üçün xarici və daxili təhdid riskinin yüksək olduğu, onun devrilməsi üçün müxtəlif ssenarilər hazırlandığı xatırladılır. M.Saakaşvili Ermənistan liderinə çağırış edərək vurğulayıb ki, o, ölkəsini qorumaq üçün təcili tədbirlər görməli, o cümlədən də Azərbaycanla dərhal sülh müqaviləsi bağlamalıdır.

## Soros uşaqlarının kədərli etirafları

M.Saakaşvilinin Ermənistan liderinə ünvanladığı müraciəti və burada ifadə olunan fikirləri Soros uşaqlarının etirafları kimi də dəyərləndirə bilərik. Belə etirafları sonradan peşimançılıq keçirən digər sabiqlər də dilə gətiriblər. Söhbət bir neçə il bundan qabaq pik həddədək yüksələn və hazırda da imperialist güc mərkəzlərinin əl atdıqları siyasi texnologiyaların - rəngli inqilabların milli seqmentlərində yer alan inqilabçılar pleyadasından gedir. Milyarder Corc Sorosun qurduğu eyniadlı fondun qrantları ilə şirnikləndirilərək ələ alınan və xüsusi qaydada təlimatlandırılan həmin nəslin nümayəndələri öz ölkələrində təşkil olunan rəngli inqilablar ssenarilərində fəal yer alırdılar. Onların bir neçəsi hətta hakimiyyət olimpinə yüksəlməyə də nail oldular.

Bu yerdə qısa haşiyə çıxmaq istərdik. Nüfuzlu "Forbes" jurnalının tərtib etdiyi dünyanın ən zəngin şəxslərinin siyahısında C.Sorosun adı 29-cu sırada göstərilib. Onun sərvəti 29 milyard dollar məbləğində qiymətləndirilir. Adını valyuta fərziyyələri ilə dünyaya tanıtdıran Soros haqqında "qan əmici Dracula" ifadəsi işlədilir. Malayziyalı bir dövlət başçısı onu "quldur" adlandırıb. Çinlilər isə Sorosa "timsah" ləqəbi veriblər. Əlbəttə, bu bənzətmələrdə mübaliğələrə yol verilib. Ancaq onlarda həqiqət payı da yox deyil. Verilən ləqəblər onun pula hərisliyi ilə bir assosiasiya yaradır.

Heç də şəffaf olmayan yollarla sərvətlərini artıran C.Sorosun adı həm də ayrı-ayrı ölkələrdə baş verən dağıdıcı rəngli inqilabların ssenarilərindən keçir. Başqa sözlə desək, milyarder, onun qurduğu Açıq Cəmiyyət İnstitutu həm də ayrı-ayrı ölkələrin, regionların, necə deyərlər, çağırılmamış qonağı sayılır.

Corc Soros haqqında bəhs olunan sonuncu qənaətin formalaşmasının ciddi real əsasları var. O, yaratdığı Açıq Cəmiyyət İnstitutu vasitəsilə özünə dünyada sərvətlərini xeyriyyəçiliyə, demokratik cəmiyyətlər qurulmasına yönəldən bir milyarder görüntüsü yaratmağa çalışıb. Ancaq əsas sual başqadır: O, milyonlarını, necə deyərlər, ora-bura xərcləyərkən nə dərəcədə səmimi və xeyirxah olub? Açıq Cəmiyyət İnstitutunun xətti ilə müxtəlif məkanlarda reallaşdırılan layihələrə və yaxud ssenarilərə nəzər saldıqda aydın olur ki, ortada səmimiyyət və humanizm ümumiyyətlə, yoxdur, söhbət sadəcə, güc mərkəzlərinin diktəsindən, cəmiyyətlərə ötürülən siyasi sifarişlədən və maraqlardan gedir. Bir neçə il bundan əvvəl Yaxın Şərqdə başlayan və hazırda da ayrı-ayrı ölkələrdə davam edən rəngli inqilabları, "Ərəb baharı"nı xatırlayaq. Bu inqilabların sosial sifarişləri cəmiyyətlərdən gəlmirdi. Bunlar imperialist güc mərkəzlərinin mətbəxlərində hazırlanan məkrli planların tərkib hissələrı idi. Belə ssenarilərin reallaşmasında Açıq Cəmiyyət İnstitutunun, C.Sorosun vəsaitləri əsas hərəkətverici mənbə kimi çıxış edirdi. Təsadüfi deyil ki, Türkiyənin "Qurdlar Vadisi" teleserialında C.Sorosun Asiya ölkələrində reallaşdırmağa çalışdığı planlardan da bəhs edilir. Nəticədə həyatlarını quran ölkələr, xalqlar "demokratiya" çağırışları ilə aldadılaraq onlar üçün mücərrəd yollara sövq edildilər və səfalətlə, anarxiya ilə üzləşdilər. Reallıq ondan ibarətdir ki, yaşanan dağıntılardan, humanitar fəlakətlərdən sonra bəhs olunan ölkələrdə demokratiya heç yada da düşmür. Həmin ölkələrin sərvətləri isə idarə olunan xaos və lidersizlik şəraitində bir ucdan çox asanlıqla talanır.





## Cənubi Qafqaz ölkələrində üç məkrli plan və üç fərqli nəticə

C.Soros və onun həmfikirləri keçmiş ittifaqdan ayrılan müstəqil dövlətlərdə də "zəif bəndlər" axtarışında olublar. Ayrı-ayrı keçmiş ittifaq respublikalarının timsalında bu axtarışların kədərli sonluqları hər kəsə bəllidir. Açıq Cəmiyyət İnstitutunun səyləri üç Cənubi Qafqaz respublikasında - Azərbaycanda, Gürcüstanda və Ermənistanda fərqli formalarda təzahür edib. C.Sorosun səyləri ilə Gürcüstanda yaşanan rəngli inqilabın dost ölkə üçün hansısa bir faydasından danışmaq əbəsdir. Əksinə, ixrac olunan "demokratiya" bu ölkənin ərazilərinin bir qisminin itirilməsi ilə nəticələndi. C.Sorosun Ermənistanda reallaşdırdığı ssenari siyasətdə piyada olan Nikol Paşinyanın iqtidara gəlməsi ilə nəticələndi. Ancaq bu ölkə də Açıq Cəmiyyət İnstitutunun xətti ilə həyata keçirilən hakimiyyət dəyişikliyindən hansısa bir divident qazanmayıb. Hazırda bu ölkədə baş verənləri çox doğru olaraq demokratiya, insan haqları adına bir ləkə kimi səciyyələndirirlər. Hansı demokratiyadan danışmaq mümkündür ki, N.Paşinyan opponentlərini bir qayda olaraq onların həbsinə göstərişlər verməklə susdurur? İrəvanın küçələrində etiraz aksiyalarının polis dəyənəyi ilə dağıdılması demokratiya ilə bir araya sığırmı? Avropanın ayrı-ayrı qurumlarının tribunalarından auditoriyaları "demokratiya" nağılları ilə ələ almağa çalışan Nikol Paşinyana - növbəti Soros uşağına ünvanlanacaq suallar çoxdur. Onların cavabı isə yoxdur. 2018-ci ildə "demokratiya" hay-küyü ilə hakimiyyətə gələn N.Paşinyan korrupsiya və yoxsulluğun aradan qaldırıldığı "Yeni Ermənistan" quracağını vəd edirdi. Ermənistanın hazırkı miskin durumunu rəngli inqilabların ən acı və zəhərli meyvələrindən biri kimi dəyərləndirə bilərik. Xəyallarda qurulan yeni Ermənistanın heç izi-tozu da yoxdur. Əksinə, N.Paşinyanın "xidmətləri" sayəsində ölkənin forpost imici daha da möhkəmlənib. Əgər əvvəlki hakimiyyətlərin dövründə Ermənistan yalnız bir güc mərkəzinin diktəsi ilə idarə olunurdusa, indi N.Paşinyan iqtidarı fəaliyyəti ilə bağlı tezisləri müxtəlif mərkəzlərdən alır. Artıq Ermənistanda anlamağa başlayıblar ki, müxtəlif maraqların toqquşması ölkənin daha böyük faciələrinə yol açacaq.



Müraciətində M.Saakaşvili N.Paşinyanın hakimiyyətdə qalıb-qalmamasının an məsələsi olduğunu xatırlatması təsadüfi deyil. Ermənistan liderinin Avropa Parlamentində son çıxışı təsdiqləyir ki, o, hakimiyyəti üçün real təhlükə yarandığı - devrilməsi ssenarisinin masada olduğu barədə siqnalları başqa mənbələrdən də alıb. Bəli, forpost ölkədə son vaxtlarda yaşananlar, o cümlədən də N.Paşinyanın çarəsiz çırpıntıları Ermənistanda rəngli inqilab ssenarisinin finala doğru yaxınlaşmasından xəbər verir.

Açıq Cəmiyyət İnstitutunun Cənubi Qafqazın hər cəhətdən lider ölkəsi olan Azərbaycanda da layihələri var idi. Qurum ölkəmizdəki ayrı-ayrı marginal qruplara vəsaitlər ayıraraq burada da idarə olunan xaos ssenarilərini reallaşdırmaq istəyirdi. Ancaq intellektual səviyyəsi kifayət qədər yüksək olan, dövlətinə, milli maraqlara möhkəm tellərlə bağlı olan Azərbaycan cəmiyyəti Sorosa və onunla eyni sırada yer alan digər azərbaycanafob dairələrə sərt təpki göstərməyi bacardı. Beləliklə, ACİ-nun respublikamızda cəmiyyəti lidersizləşdirmək cəhdləri bütünlüklə iflasa uğradı. Azərbaycan öz yolu ilə gedərək böyük uğurlara imza atır.

*Mübariz ABDULLAYEV*

# Qəzzaya sülh gələcəkmi?

## Müharibənin uzanması və genişlənməsi ehtimalı irəli sürülür

Bütün dünyanın diqqət mərkəzində olan Qəzza zolağında baş verən gərginliklər davam edir. Günlərdir ki, qarşılıqlı hücumlardan əziyyət çəkən dinc insanlar artıq şəhərləri tərk etmək məcburiyyətində qalıb. Dünyanın aparıcı dövlətləri, təşkilatları isə münaqişənin sülh yolu ilə tənzimlənməsi istiqamətində fəaliyyətlərini davam etdirir, hər iki tərəfə çağırışlar edirlər.

İsrail səfəri zamanı Baş nazir Binyamin Netanyahu ilə görüşündə ABŞ Prezidenti Co Bayden Qəzza zolağında baş verənlərlə bağlı fikirlərini bölüşüb. O bildirib ki, Qəzza zolağında yüzlərlə insanın ölümünə səbəb olan xəstəxanaya hücumda İsrailin əli yoxdur. “Gördüklərimə görə, bunu siz (İsrail) yox, qarşı tərəf edib. Lakin bir çox insanlar buna əmin deyillər”, - deyə Amerika lideri deyib.

Ağ Evin rəhbəri tibb müəssisəsində baş verən partlayışdan dərin kədərləndiyini bildirib. Baydenin sözlərinə görə, səfərinin məqsədi ABŞ-ın İsrailə dəstəyini dünyaya nümayiş etdirməkdir. O, həmçinin əmin edib ki, Birləşmiş Ştatlar İsrail-Fələstin münaqişəsi fonunda Təl-Əvivin ehtiyac duyduğu bütün yardımların alınmasını təmin edəcək. ABŞ Prezidenti günahsız fələstinlilərin həyatını qorumaq üçün lazım olan hər şeyi etməyə çağırıb.

### Baydenin vasitəçiliyi...

Bu arada dünya mətbuatı Baydenin Yaxın Şərqdə vasitəçilik cəhdini uğursuz adlandırıb. Bu barədə İspaniyanın “El Pais” nəşri yazıb. Nəşrin yazdığına əsasən, Baydenin İsrail hökumətinə təzyiq və ərəb ölkələri liderləri ilə dialoq cəhdləri regionda gərginliyi azaltmayıb. Qeyd olunub ki, Bayden hazırda uğursuzluğa düçar olan Yaxın Şərq siyasətini qoruyub saxlamağa çalışıb. ABŞ tərəfindən BMT Təhlükəsizlik Şurasının atəşkəsə çağıran qətnaməsinə veto qoyması isə vəziyyəti daha da pisləşdirib.

Nəşr belə hesab edir ki, ərəb ölkələrinin narazılığı ABŞ-nin regiondakı xarici siyasətinin əsas istiqaməti olan Səudiyyə Ərəbistanı ilə İsrail arasında barışığın qeyri-müəyyən müddətə təxirə salınmasına səbəb ola bilər. ABŞ administrasiyasının İsrailə səfəri yaxınlarda ölkədə başlayacağı gözlənilən seçki kampaniyası zamanı Bayden üçün daxili cəbhədə də problemlər yarada bilər.

Misir və Böyük Britaniya xarici işlər nazirləri də Qəzzadakı vəziyyəti müzakirə ediblər. Misir Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin məlumatına əsasən, Böyük Britaniya XİN rəhbəri Ceyms Kleverlinin Qahirəyə səfəri çərçivəsində onun misirli həmkarı Sameh Şükri ilə baş tutan görüş zamanı Qəzzadakı hərbi gərginlik, eskalasiyanın aradan qaldırılması istiqamətində regional və beynəlxalq səylər, Qəzza zolağına humanitar yardım çatdırılması məsələsinin prioritetə çevrilməsi və münaqişənin miqyasının genişlənməsinin qarşısının alınması məsələləri müzakirə olunub.

### 203 girov...

Bu arada HƏMAS-ın Qəzza zolağında saxladığı girovların təsdiqlənmiş sayı 203-ə çatıb. Bunu İsrail ordusunun sözçüsü bildirib. Oktyabrın 7-dən bəri öldürülən İsrail hərbçilərinin sayı azı isə 306 nəfərdir. Eyni zamanda, İsrail Silahlı Qüvvələri şəhərlərdə, qəsəbələrdə və kəndlərdə 347 yerli özünümüdafiə dəstəsi formalaşdıracaq. “Yedioth Ahronoth” qəzeti xəbər verir ki, yəhudilər kütləvi surətdə özünümüdafiə dəstələrinin sırasına yazılır. Həmin dəstələr İsrail Silahlı Qüvvələrinin strukturuna daxil ediləcək və arxa cəbhə komandanlığına tabe olacaq. Xüsusi təlim keçəcək könüllülər lazımi ləvazimat və odlu silahla təmin ediləcək. Özünümüdafiə dəstələri əvvəllər yalnız təmas xətti zonalarında fəaliyyət göstərirdi, lakin HƏMAS hərəkatının hücumundan sonra digər yaşayış məntəqələri də təşəbbüsə qoşulmağa başlayıb. Son həftə ərzində 17 yaşayış məntəqəsində belə dəstələr formalaşdırılıb. Onların heyətinə orduda xidmət təcrübəsinə malik insanlar və istefada olan polislər cəlb edilib. Bir müddət öncə İsrailin güc strukturları 13,2 min könüllünü silahlandıracağı barədə məlumat yaymışdı.



### Aylar çəkəcək...

Münaqişənin nə vaxta qədər davam edəcəyi ilə bağlı isə birmənalı fikirlər səslənmir. İsrailin fövqəladə hallar kabinetinin üzvü, ölkənin müdafiə departamentinin keçmiş rəhbəri Benni Qantz İsrailin Fələstinin radikal HƏMAS hərəkatını məğlub etməsinin aylar çəkəcəyini bildirib. O qeyd edib ki, xüsusən də Hizbullah partiyasının silahlı qanadı müharibəyə qarışsa vaxt daha da uzanacaq. “Bu müharibə çox vaxt aparacaq. Cənubda, lazım gələrsə, şimalda və ya başqa yerlərdə müharibə aylarla davam edə bilər. Yenidənqurma isə illərlə davam edəcək”, - “The Times of Israel” qəzeti onun sözlərindən sitat gətirib. “Məqsəd təkcə HƏMAS-ı məğlub etmək deyil, cənubun 100 faiz cənnətə çevrilməsini təmin etməkdir”, - deyən Qantz əlavə edib: “Müharibədə hər bir döyüş cəbhəsində qələbə qazandıqdan sonra biz özümüzü bu bərpaya həsr edəcəyik”.

### Ərəb dünyasının müharibəyə qoşulma ehtimalı...

Bəzi siyasi ekspertlər isə ərəb ölkələrinin münaqişəyə müdaxilə imkanları haqda fərqli fikirlər irəli sürürlər. Məsələn, hərbi ekspert Vladimir Proxvatilov Qəzzada xəstəxanaya hücumdan sonra ərəb dövlətlərinin İsraillə döyüşmək üçün birləşmək imkanlarını “ikidibli təxribat” kimi qiymətləndirib. Proxvatilov bütün ərəb ölkələrinin İsrailə qarşı müharibə ehtimalından danışıb. “Total cihad olmayacaq. Düşünürəm ki, münaqişə dəyişəcək”, - Proxvatilov “News.ru”-ya müsahibəsində deyib. Onun sözlərinə görə, İsrail Qəzza zolağından dinc sakinlərin çıxarılması üçün əməliyyatı dayandırıb, lakin Misir münaqişənin genişlənməsindən ehtiyat edərək onları öz ərazisinə buraxmır.

Ekspert, həmçinin hesab edib ki, Qəzza zolağında çoxsaylı evlərin dağıdılması quru əməliyyatına problem yaradır, çünki bu şərtlərdə HƏMAS-ın hərbi qanadının müdafiəni təşkil etməsi daha asan olacaq.

“Düşünürəm ki, münaqişə donacaq”, - deyə Proxvatilov öz fikrini bildirib və əlavə edib ki, münaqişə böyük, uzunmüddətli müharibəyə çevrilməyəcək.

Xatırladaq ki, tarixdə bir neçə dəfə ərəb-İsrail qarşıdurması yaşanıb. 1948, 1956-cı illərdə, eyni zamanda, 1967-ci ildə altıgünlük müharibə dövründə İsrail ilə ərəb dünyası arasında silahlı qarşıdurmaların şahidi olunub: yeganə müharibə - 1973-cü ildə başlanan İsrail ilə Misir və Suriya arasındakı müharibə olub ki, nəticədə sülh müqaviləsi imzalanıb...

**_SADİQ_**

# 10 dəqiqəlik çıxış...

## Avropa Ermənistanı niyə “sevir”?

### Paşinyanın Avroparlament macərasının pərdəarxası

Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa Parlamentindəki 10 dəqiqəlik çıxışı Avropanın “Nikol və ya erməni sevgisini”, eyni zamanda, Nikolun “əsl məqsədlərini” üzə çıxardı. Çıxışını bütövlükdə, yalan, qərəz və özünütərif üzərində quran Paşinyan sanki bəzi dairələrə “mesaj” ünvanlayırdı - “məni dəstəkləyin, bütün əmrləriniz yerinə yetəcək”. Bu “əmrlərin” və ya arzu-istəklərin isə nədən ibarət olması haqda fikirlər müxtəlifdir.

### Ermənistandan Paşinyana etiraz...

İlk olaraq vurğulayaq ki, Paşinyanın 10 dəqiqəlik “iflas çıxışı” öz ölkəsində belə “top-tüfənglə” qarşılanıb. Onun yalnız şəxsi maraqlar üçün “səfərbər” olması faktı, bunun qarşılığında isə Ermənistan dövlətinin maraqlarını ikinci plana atması erməni deputatlar tərəfindən etiraza səbəb olub. Məsələn, Ermənistan parlamentində eyni adlı müxalifət bloku fraksiyasının katibi Artsvik Minasyan deyib ki. Nikol Paşinyanın Avropa Parlamentindəki çıxışı bütünlüklə baş nazir kreslosunu qoruyub saxlamağa həsr olunub. Erməni deputatın fikrincə, baş nazir Avropa Parlamentindəki çıxışı ilə ölkəsini necə ağır və alçaldıcı vəziyyətə saldığını belə başa düşmür. “On dəqiqə ərzində o, davamlı olaraq baş nazirliyindən, hakimiyyətini qorumaq zərurətindən danışdı. Hətta hansısa demokratiyadan danışmaq olar, lakin biz hamımız görürük ki, ölkədə həqiqətən nə baş verir”, - deyə Minasyan bildirib. O, parlament müxalifətinin Ermənistanda demokratiya ilə bağlı vəziyyətlə əlaqədar Aİ və ABŞ-ın müvafiq strukturlarına çoxlu məktublar göndərdiyini, lakin heç bir reaksiyanın olmadığını vurğulayıb. “Bu insanlara (Qərbəki - red.) Nikol Paşinyan lazımdır, çünki o, ardıcıl olaraq beynəlxalq güc mərkəzlərinin göstərişlərini yerinə yetirir”, - deyə Minasyan bildirib.

### Paşinyan Qərb üçün nələr etməz...

Paşinyan bu çıxışında əsasən, müttəfiqlərini hədəfə alması, Qərbə “yarınmaq üçün” cilddən-cildə girməsi ilə “yadda qalmışdı”. O, bir çox məqamlarda Qərbin “rolunu yüksək dəyərləndirərək” öz müttəfiqlərini ittiham etməyə cəhd göstərmişdi. Bildirmişdi ki, mütəffiqləri onlara heç bir kömək etməyib: “Təhlükəsizlik üzrə müttəfiqlərimiz nəinki xarici təcavüz zamanı kömək etmədilər, həm də Ermənistanda hakimiyyət dəyişikliyi ilə bağlı açıq çağırışlar etdilər”.

Təbii ki, ortada olan maraq bəllidir. Paşinyanın bu “çıxışının” ardından Azərbaycana qarşı ədalətsiz mövqenin sərgilənməsi çox şeydən xəbər verir. Avropanın Paşinyana olan “sevgisin”də qaranlıq biznes maraqları, “pulsilmə əməliyyatı”, “çirkli pulların yuyulması” prosesi, köhnə silahların “satılması” variantları, Ukraynaya yardım kimi göndərilən silahların Ermənistana “ötürülməsi”, oradan isə hətta başqa dövlətlərə “satılması” kimi məqamlar gizlənməkdədir. Paşinyanın dilə gətirdiyi məqamlar, arzusu, istəyi heç də əməkdaşlıq və ya tərəfdaşlıq deyil - bu, birmənalı şəkildə özünü Qərbə “təslim etməkdir”. Regionda fərqli maraqların “danışan dili”nə, “vuran əli”nə, “pul ximçistikasına” çevrilmək uğrunda mübarizə aparan Paşinyan bu uğurda hətta özünün müttəfiqlərini belə zərbə altına qoymaqdan çəkinmir...

### Reaksiya...

Paşinyan öz çıxışında bəlkə də artıq “keçmiş” saydığı müttəfiqlərinə qarşı açıq demarş etdi - təbii ki, bu demarşın əsas ünvanı bəlli idi. Paşinyanın “sığındığı” dairələrin, mərkəzlərin əsas rəqibi olan Rusiyanın Avropa Parlamenti tribunasından bu kimi “ittihamlara” məruz qoymaqla isə Paşinyan dividend axtarışındadır - axı, hər kəs bilir ki, KTMT-nin hərbi gücünü Azərbaycana qarşı yönəltməyə çalışan Paşinyanın öz naqis və qeyri-qanuni istəyinə çatmaması hüquqi prosedur idi. Yəni KTMT hüquqi prosedurları əsas gətirərək, beynəlxalq qanunlara söykənərək Azərbaycanın Ermənistana hücum etmədiyini təsdiqləmişdi və Ermənistanın oyunlarının iştirakçısına çevrilməmişdi. Bundan “inciyən” Paşinyanın Avroparlamentdə ilk fürsətdəcə müttəfiqlərini hədəfə alması gözlənilən idi.

Yeri gəlmişkən, Rusiya Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa Parlamentində çıxışını məsuliyyətsizlik və təxribatçılıq kimi qiymətləndirir. KİV-in yaydığı məlumata görə, bu fikri TASS agentliyinə Moskvadakı yüksəkvəzifəli məmur söyləyib. “Ermənistanın baş naziri Nikol Paşinyanın oktyabrın 17-də Avropa Parlamentindəki çıxışını olduqca məsuliyyətsiz və təxribatçı çıxış kimi qiymətləndiririk. Bu, xüsusilə çıxışın Rusiya və Rusiya-Ermənistan münasibətlərinə dair hissəsinə aiddir”.

Paşinyanın bu qeyri-peşəkar davranışı isə ölkəsini pis vəziyyətə salıb. Hətta onu “sudan quru” çıxarmaq uğrunda mühüm iş belə gedir. Məsələn, Ermənistan xarici işlər nazirinin müavini Paruyr Ohanesyan deyib ki, Nikol Paşinyan Avropa Parlamentindəki çıxışında Rusiyanı etibarsız tərəfdaş kimi göstərməyib. “Heç bir sensasion açıqlama verilməyib, çıxışın əvvəlində heç bir ölkənin adı çəkilməyib. Müttəfiqlərimizdə məyusluq olduğu bildirilib, hansı müttəfiqlər olduğu qeyd olunmayıb”. Demək ki, Avropaya “arxayın” olmaq Paşinyana heç də böyük “gələcək” vəd etmir. Bunu Ermənistanda da başa düşürlər...

**_P.SADAYOĞLU_**

# Ağıldan müdrik gözəllik

## Tomas Mannın “Venesiyada ölüm” novellası haqqında

Prussiya kralı Fridrixin həyatından bəhs eləyən “Mayya” adlı romanın, “Ruh və incəsənət” adlı sanballı traktatın, bir sıra başqa şöhrətli əsərin müəllifi Qustav Aşenbax dincəlmək üçün İtaliyanın Venesiya şəhərinə yollanır. Burada o, Lido adasında özünə otel nömrəsi kirələyir. Əlli yaşının tamam olması münasibətilə kral onu “fon” titulu ilə mükafatlandırıb. Artıq o, sadəcə, Aşenbax deyil, Qustav fon Aşenbaxdır.

Yazıçıyla bir oteldə kübar polyak ailəsi də qalır - qadınlar, qızlar, bir də Tadzio, yaxud Tacu (Tadeuşun əzizləmə forması) adlı on dörd yaşlı gözəl oğlan. Fon Aşenbax antik heykəllərə bənzəyən, gözəllik etalonu sayılmağa layiq oğlana aşiq olur, hara getsə, onu izləyir, onu seyrə dalmaqdan dərin zövq alır.

Düşdüyü haldan məmnun qalmayan, daha doğrusu, utanan yazıçı arada geri qayıtmaq qərarına gəlir, biletini də alır, ancaq onun baqajı səhvən tamam başqa istiqamətə, başqa ünvana göndərilib, bu səbəbdən o, azı üç gün gözləməlidir. Aşenbax üzdə özünü qəzəblənmiş kimi göstərsə də, ürəyində sevinir: demək, tale onun buralardan belə tezliklə getməsini istəmir, ona şirin duyğunu doyunca daddırmaq istəyir.

Bir neçə həftədən sonra yazıçı Venesiya küçələrinin dezinfeksiya olunduğunu görür. Şayiə gəzir ki, şəhərə epidemiya ayaq açıb, ancaq yerli hakimiyyət turistləri ürkütməmək üçün gerçəyi danır. Alman qəzetləri də bu deyilənləri təsdiqləyir. Aşenbax kimdən soruşursa, hamı rəsmi versiyanı səsləndirir, narahatlığa əsas olmadığını bildirir. Guya dərmanlama istiyə, bir də dənizin çəkib gətirdiyi sirokko adlı yoluxdurucu yelə görədir.

Handan-hana səyahət bürosunda çalışan bir ingilis onu qəflətdən ayıldır: Qanq çayının deltasından baş götürən, su yoluyla İtaliyaya da gəlib çıxan Asiya vəbası artıq can almağa başlayıb. Bəlanın ilk qurbanları bir liman fəhləsiylə bir göysatan qadın olub. Bundan sonra ölüm sayında kəskin artım baş verib. Amansız mərəz şəhərdə insanların əxlaqını da pozub, cinayətlərin, qətllərin sayı çoxalıb, odur ki, yerli hökumət bu gün-sabah karantin elan eləyəcək. İngilis Aşenbaxa məsləhət görür ki, vaxt itirmədən buralardan qaçsın.

Yazıçı düşünür: polyakları dəhşətli bəladan agah eləsə, Tadzionun qızılı saçlarına sığal çəkmək imkanı da qazanacaq. Fəqət onlar gedəndən sonra hər şey əvvəlki halına, əvvəlki rənginə, əvvəlki dadına qayıdacaq. Aşenbaxın ən çox qorxduğu da elə budur: o, əvvəlkitək yaşamaq, keçmişə qayıtmaq istəmir, ona görə də polyakları xəbərdar eləmir. Gecə yazıçı yuxusunu qarışdırır, yuxuda onun üzünə iblisanə mənzərələr açılır.

Əllini aşırmış yazıçının qabını daşıran duyğular getdikcə daha da coşub tüğyana gəlir. Aşenbax bərbərə gedib dən düşmüş saçlarına rəng yaxdırır, üzünə ənlik-kirşan vurdurur, görkəmcə xeyli gəncləşir. Ürəyindən keçir ki, kaş xəstəlik hamını öldürə, bu adada bir Tadzio, bir də o özü qala. Günlər ötdükcə Aşenbax qəribə hallar keçirməyə başlayır, polyak balasını izləməkdən yorğun düşmüş vücudu üzülüb əldən gedir. Polyakların yola çıxmağa hazırlaşdığı gün məşhur yazıçı Tadzionun dənizin fonundakı siluetinə baxa-baxa canını tapşırır.

***

Bəs, Aşenbaxın “əvvəli” nə olub, niyə kraldan təltif almış, şöhrəti dünyanı tutmuş yazıçı ən yaxın keçmişinə qayıtmaq istəmir?

Kübar ailədən çıxmış arvadı ağır xəstəlikdən ölüb, gözünün ağı-qarası tək qızı ərdədir. Aşenbax özü ömrü boyu ölçülü-biçili, zahidanə həyat yaşayıb, əqidəli bir stoik kimi duyğularını, emosiyalarını nəzarətdə saxlayıb, özünü taleyin ixtiyarına tapşırıb. Hər zaman onun başlıca şüarı “dözmək, dayanmaq” olub. Eşq ocağı, sevgi yatağı Venesiyaya gələndən sonra isə Aşenbaxın öz canını bəslədiyi, həm də kənar təsirlərdən qoruduğu şüşə qab çiliklənib, onun qəfəsdəki ruhu azadlığa çıxıb. İndi o quş o qəfəsə yenidən qayıtmaq istəmir...

Tomas Mannın novellası haqqında danışmağa hazırlaşanda bir sıra ciddi ədəbiyyat xiridarının fikirlərini dinlədim. Demək olar, hamısı Aşenbaxın düşdüyü situasiyanı Nitsşenin təbiriylə Apollonun səltənətindən Dionisin cəhənnəminə (qəhrəmanın gördüyü yuxuda məhz belə bir erotik cəhənnəm təsvir olunub), harmoniyadan xaosa, müdriklikdən emosionallığa keçid kimi qiymətləndirir. Əsas istinad nöqtələri də budur ki, müəllifin özünün də bioqrafiyasında buna bənzər hallar olub. Qustav Aşenbax isə heç şübhəsiz, avtobioqrafik obrazdır.

1911-ci ildə qələmə alınmış bu əsəri hətta tarixi-sosioloji kontekstə salıb, onda Avropanı bürüməkdə olan dekadansın, qitəni gözləyən gələcək fəlakətlərin - müharibələrin, xəstəliklərin anonsunu axtaranlar da var. Novellaya bu yöndən yanaşanlar üçün Venesiya gözəlliklər məkanı, eşq, sənət məbədi yox, pozğunluq, əxlaqsızlıq yuvası, xəstəlik mənbəyidir.

Məsələni Apollonla Dionisin mübahisəsi, başqa sözlə, stoiklərlə epikürçülərin polemikası kimi qələmə vermək oxucuya hansı mesajı ötürməkdir? Belə çıxır ki, mükəmməl gözəlliyi bütə çevirib onun qarşısında heyrətə gəlmək şeytan əməlidir? Bu gedişlə Füzulini də İblisə qulluq eləməkdə suçlamaq olar. Mühafizəkar yazıçını, həyalı bir insanı Münhendən Venesiyaya gətirib burada onu xaos girdabına, ehtiras burulğanına salmaq, onu bir uşağın ardınca süründürüb içində yatan şübhəli təmayülü ifşa eləmək, üzündəki həya pərdəsini yırtmaq, sonra da onu cəzalandırıb ölümünə fitva vermək böyük bir yazıçının nəyinə lazımmış görən? Bununla o bizə nə demək istəyib?

Əvvəla, stoisizmdən epikürçülüyə, başqa sözlə, zahidlikdən rindliyə keçiş heç də Tanrıdan Şeytana, harmoniyadan xaosa, xeyirdən şərə keçmək deyil, sadəcə bir qütbdən başqa qütbə adlamaqdır. İkincisi, əgər bir stoik silahını yerə qoyub epikürçülərin tərəfinə keçibsə, yaxud bir zahid postunu tərk eləyib rindlərə qoşulubsa, burada nə eniş var, nə də yüksəliş; bu, o deməkdir ki, adam nə olduğundan aşağı fikir mərtəbəsinə düşüb, nə də yuxarı mərtəbəyə qalxıb, sadəcə, qapıbir qonşusunun mənzilinə köçüb, qapının bu üzündən o biri üzünə adlayıb. Zahirən bir-birinə daban-dabana zidd görünsə də, stoisizmlə epikürizm eyni təfəkkür mərtəbəsində qərar tutmuş fikir cərəyanlarıdır. Hər ikisi insanı eyni dinclik nöqtəsinə, nirvana məqamına (apatiya, ataraksiya) çağırır; sadəcə stoik bu nöqtəyə ehtirasların köləliyindən qurtulub gəlir, epikürçü - qorxuların.

***

Həvəskar ədəbiyyatçı kimi elmiliyə iddialı olmadığıma görə mənim hər hansı əsər haqqında daha sərbəst, necə deyərlər, standartdan kənar mühakimə yürütmək imkanım, yəqin ki, həm də ixtiyarım var. Məncə, Qustav Aşenbax Tadzionun timsalında mükəmməl yaradılışa, ideal gözəlliyə, öz xaliqini saf ayna kimi tərtəmiz ifadə eləyən məxluqa aşiq olur. Yaradılana yaradanın sənət əsəri kimi baxır. Bu münasibəti erotik planda gözdən keçirmək bizi çox bayağı nəticələrə aparıb çıxara bilər. Unutmayaq ki, Tomas Mann idealist mütəfəkkirdir, onun iyirminci əsrdə qurduğu işıq stansiyası özündən əvvəlki zamandan axıb gələn ən azı dörd nəhəng ideya nəhrinin, idealistin (Höte, Nitsşe, Dostoyevski, Tolstoy) qovuşağında yerləşir.

Beləliklə, Aşenbaxın ruhunda baş verən təbəddülat Apollon ümmətindən Dionisin bəndəliyinə, stoisizmdən epikürçülüyə keçid deyil, asketizmdən mistisizmə yüksəlişdir. Ona qədər zahidanə ömür sürmüş qəhrəman ilahi gözəlliyə heyranlığının sayəsində dərvişlik məqamına yetişir, eynən bir dərviş, bir mistik kimi öz bütü qarşısında lal-dinməz qalır. Təsadüfi deyil ki, o, üzündən göz çəkə bilmədiyi Tadzionu əsər boyu bircə yol da dindirmir, onun qızıl tellərinə toxunmağı xəyalına gətirsə də, buna can atmır. Bu, xalis platonizmdir.



**_F.Uğurlu_**

davamı növbəti sayımızda

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# “Azercell” “Rebuild Karabakh”a dəstəkdir

Lider mobil operatorun Baş sponsorluğu ilə keçirilən “Rebuild Karabakh” sərgisinin məqsədi işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinə diqqət cəlb etməkdir

19-21 oktyabr tarixlərində “Azercell Telecom”un baş sponsorluğu ilə 3-cü Azərbaycan Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı - “Rebuild Karabakh” sərgisi baş tutacaq. Sərginin əsas hədəfi Qarabağ üçün investisiyaların həcmini artırmaq, xarici şirkətlərin Qarabağın inkişafında, infrastrukturunun bərpasında, mülki obyektlərin tikintisində iştirak etməsini təmin etməkdir.

Sərgiyə həsr olunmuş mətbuat konfransında çıxış edən “Azercell Telekom” MMC-nin Tərəfdaşlarla Münasibətlər şöbəsinin direktoru Nigar Şıxlinskaya bildirib ki, şirkət Qarabağda bərpa və yenidənqurma işlərinin fəal dəstəkçisidir. İşğaldan azad olunmuş ərazilərdə ilk mobil infrastrukturu quran “Azercell”in hazırda Qarabağda LTE texnologiya əsaslı 125 baza stansiyası fəaliyyət göstərir: “Cənab prezident bir neçə gün öncə Xankəndində Azərbaycan bayrağını yüksəltdi. Ondan öncə isə “Azercell” işğaldan azad edilmiş bir çox ərazilərində olduğu kimi Xankəndi, Xocalı, Ağdərə, Əsgəran və Sərsəng su anbarı ərazisində mobil şəbəkəsini işə saldı. Biz “Böyük Qayıdış Proqramı” çərçivəsində doğma torpaqlarına geri dönən vətəndaşlarımıza xidmət göstərməkdən qürur duyuruq. “Azercell” Şuşa şəhəri də daxil olmaqla, Qarabağda müştəri xidmətləri mərkəzini və rəsmi diler mağazasını istifadəyə verən ilk mobil operatordur. Şirkətin birinci rəsmi diler mağazası isə “ağıllı kənd” konsepsiyası ilə tikilən Zəngilanın Ağalı kəndində istifadəyə verilib. Həmçinin “Azercell” ötən il Qarabağda “yaşıl” texnologiyaların da tətbiqinə başlayaraq Qubadlı və Cəbrayılda günəş enerjisinə əsaslanan baza stansiyalarını işə salıb. Hazırda digər ərazilərdə də “yaşıl” stansiyaların tətbiq edilməsi və saylarının 35-ə çatdırılması nəzərdə tutulur.”

“Azercell” işğaldan azad olunmuş torpaqlarda yeni nəsil şəbəkənin genişləndirilməsi və bu ərazilərə qayıdacaq əhalinin qabaqcıl kommunikasiya xidmətləri ilə təmin edilməsi istiqamətdə işlərini davam etdirir.

Sərgi haqqında ətraflı məlumatı www.rebuildkarabakh.az rəsmi internet saytından əldə etmək mümkündür.

# Ləziz təamların müəllifləri...

## Dünya kulinarları bayram edirlər

*Günel ABBAS*

İnsanların həyatında yaşamaq üçün lazım olan əsas ehtiyaclardan biri də qidadır. Düzgün qidalanma sağlamlığın ən əsas şərtlərindən biridir. Təsadüfi deyil ki, xəstəliklərin böyük əksəriyyəti düzgün qidalanmamaq nəticəsində orqanizmdə maddələr mübadiləsinin pozulması ilə əlaqədar olur. Təəssüf ki, əhalinin xeyli qismi qidalanma qaydalarından xəbərsizdir. Təcrübə göstərir ki, qidalanma zamanı heç bir prinsipi gözləməmək ən çox yol verilən səhvlərdən biridir. Sağlam qidalanmaq barədə xüsusilə təbii gigiyena ilə məşğul olan həkim və mütəxəssislərin mövqeləri maraq doğurur. Sağlam qidalanmanın vacibliyi isə son dövrlərdə xüsusilə qeyd olunur. Hər bir ölkədə qida sistemi fərqlidir, yeməklər fərqli üsullarla hazırlanır.

Təbiidir ki, hər ölkənin mətbəxinin də bir tarixi var. Yediyimiz ləziz təamların heç biri birdən-birə yaranmayıb. Hər bir xalqın tarixi, coğrafi şəraiti, adət-ənənələri, dini inancları, dünyagörüşü və məişəti onun kulinariyasının əsas cəhətlərini formalaşdırır. Hər hansı bir ölkənin mətbəxinə nəzər salsaq, orada bioloji, psixoloji, sosial-mədəni və tarixi təsirlərin izlərini görə bilərik. Məsələn, bəzi şərq ölkələrində yeyilən bir çox yeməklər bizim xalqımız tərəfindən heç də xoş qəbul edilmir. Onların demək olar ki, bütün heyvan ətlərini heç bir fərq qoymadan yeməleri bizə qəribə gəlir. Çünki bizim tariximiz, dini inanclarımız və dünyaya baxış bucağımız onlardan fərqlənir. Bu da mədəniyyətimizdə və kulinariyamızda əsaslı fərq yaradır.

Oxşar mədəniyyətlərdə bənzər məqamlara rast gəlinsə də, bütün dünya ölkələrinin kulinariyasının bir-birindən fərqli olduğunu deyə bilərik. Müxtəlif xalqların özünəməxsus kulinariyasını təbliğ etmək, sağlam qidalanmanın əhəmiyyətini qeyd etmək, insanların bu haqda məlumatlılığını artırmaq və bu mədəniyyətləri gələcək nəsillərə ötürə bilmək üçün hər il 20 oktyabr Beynəlxalq Kulinariya Günü kimi qeyd olunur.

**Milli kulinariyamızın sirləri**

Ümumdünya Kulinariya Təşkilatının təşəbbüsü ilə



2004-cü ildə İrlandiyanın Dublin şəhərində keçirdiyi beynəlxalq konfransda 20 oktyabr Beynəlxalq Kulinariya Günü olaraq elan edilib. Azərbaycanda isə bu gün 2007-ci ildən qeyd olunmağa başlayıb. Hər il ölkəmizdə “Beynəlxalq Kulinariya Günü”nə özəl tədbirlər həyata keçirilir. Bunun əsas məqsədi xüsusilə gəncləri Azərbaycanın milli kulinariyasının sirləri ilə tanış etmək və gələcəkdə onların xalqımızı layiqincə təmsil etmələrinə şərait yaratmaqdır.

1991-ci ildə xalqımızın milli mətbəx mədəniyyətinin öyrənilməsi və təbliği məqsədilə Azərbaycan Milli Kulinariya Mərkəzi yaradıldı. Bu mərkəz 1992-ci ildə Ümumdünya Kulinariya Təşkilatları Birliyinin üzvü oldu. Bununla da Azərbaycan MDB məkanında və Türk dünyasında bu quruma qəbul edilən ilk dövlət olaraq tarixə düşüb.

Milli Kulinariya Mərkəzi yarandığı gündən etibarən bu sahədə ən yaxşı mütəxəssisləri öz ətrafına toplayıb. Məhz bunun nəticəsi olaraq göstərə bilərik ki, 1993-cü ildə Azərbaycan milli komandası ilk dəfə Maltada keçirilən Dünya kulinariya çempionatına qoşulub və qızıl medalla Vətənə dönüb. Milli kulinariya ustalarımız qatıldığı yarışlarda birinciliyi əldən verməməyə qərarlıdırlar. Onlar dünyanın bir çox ölkəsində xalqımıza məxsus zəngin mətbəx mədəniyyətimizi nümayiş etdirərək ləziz təamlarımızı dünyaya tanıdırlar.



# Millinin baş məşqçisi: Karateçilərimizin dünya çempionatında uğur qazanmaq şansı yüksəkdir

“İlboyu hazırlıqlarımızı dayandırmamışıq. Bəzi idmançılarımız xəstədirlər, bəzilərinin zədəsi var. Ona görə də məşqlərdə iştirak edə bilmirlər. Ümid edirəm ki, dünya çempionatına kimi hazır olarlar”.

AZƏRTAC xəbər verir ki, bu sözləri kişi karateçilərdən ibarət kumite millisinin baş məşqçisi Qurban Tağıyev dünya çempionatına hazırlıqla bağlı təşkil olunan açıq məşq zamanı jurnalistlərə açıqlamasında deyib.



Mütəxəssis idmançıların mundialda uğur qazanmaq şanslarının yüksək olduğunu bildirib: “Amma ən pik formada olan idmançıdan belə, hər dəfə nəticə gözləmək olmaz. Hər çəki üzrə karateçilərimizin əvvəlki yarışlarda nəticələri var. Dünya çempionatında da uğur qazanmaq şansları yüksəkdir. Ardıcıl nəticə verən idmançılar İrina Zaretska, Asiman Qurbanlı, Tural Ağalarzadə və böyüklərdən ibarət yığmaya yenicə yüksələn Əminağa Quliyevdir. Amma o demək deyil ki, digərləri uğursuz çıxış edəcəklər. Ümid edirəm ki, yarışdan yaxşı nəticələrlə qayıdarıq”.

O, xəstəlik və zədə səbəbindən məşqlərə qatılmayan karateçilərin adlarını da açıqlayıb: “Bunlar Fərid Ağayev, Asiman Qurbanlı, Rafiz Həsənov, Firdovsi Fərzəliyev və Fidan Teymurovadır”.

Qeyd edək ki, karate üzrə dünya çempionatı oktyabrın 24-dən 29-dək Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək.

# “Azərreyl”in voleybolçusu: Uğurlu çıxışda azarkeşlərimizin böyük rolu oldu

“Hər iki qələbə münasibətilə komandamı təbrik edirəm. Uğurlu çıxışda azarkeşlərimizin böyük rolu oldu”.

AZƏRTAC xəbər verir ki, bu sözləri “Azərreyl”in voleybolçusu Aynur İmanova Çağırış Kubokunun 1/32 final mərhələsində Bakıda Ukraynanın “Balta” klubuna hər iki oyunda 3:0 hesabı ilə qalib gəlmələri barədə danışarkən deyib.



Kapitan bildirib ki, bundan sonra komandasını daha çətin matçlar gözləyir: “Həmin görüşlərə yaxşı hazırlaşmaq, uğurlu nəticələri davam etdirmək üçün əlimizdən gələni edəcəyik”.

Onun sözlərinə görə, azarkeşlərdən aldıqları dəstək komanda üzvlərini qürurlandırıb: “Onları görəndə daha yaxşı oyun ortaya qoyuruq. Düzdür, səfər görüşlərində belə atmosfer olmayacaq. Ancaq yenə də bütün gücümüzlə mübarizə aparacağıq”.

Qeyd edək ki, “Azərreyl” Çağırış Kubokunun 1/16 final mərhələsində İspaniyanın “Avarka de Menorka” klubu ilə üz-üzə gələcək.

# Gimnastlarımız Avropa çempionatında gümüş medal qazanıblar

Akrobatika gimnastikası üzrə Azərbaycan yığmasının üzvləri Bolqarıstanın Varna şəhərində keçirilən 31-ci Avropa çempionatında gümüş medal qazanıblar.




AZƏRTAC xəbər verir ki, Nəzrin Zeyniyeva, Zəhra Rəşidova və Anahita Bashiridən ibarət qadın qrupu (gənclər) temp hərəkətləri proqramında fəxri kürsünün ikinci pilləsinə yüksəlib.

Qeyd edək ki, yarışa oktyabrın 22-də yekun vurulacaq.

# Avropa Kubokunda Azərbaycanı 16 cüdoçu təmsil edəcək

Oktyabrın 21-də Latviyanın paytaxtı Riqada yeniyetmə cüdoçular arasında Avropa Kubokuna start veriləcək.

Azərbaycan Cüdo Federasiyasının mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iki gün davam edəcək turnirdə 22 ölkədən 314 idmançı qüvvəsini sınayacaq. Azərbaycan yarışda oğlanlar arasında 7 çəki dərəcəsində 16 cüdoçu ilə təmsil olunacaq.

Avropa Kubokunda yeniyetmələrdən ibarət yığmanın üzvləri - Bahadır Feyzullayev, Rüstəm Qasımzadə (hər ikisi 50 kiloqram), Telman Abdullayev, Nihad Məmişov (hamısı 55 kiloqram), Mirxaliq İskəndərov, Əhməd Rüstəmov (hər ikisi 60 kiloqram), Ümüd Qurbanov, Səid Şərifov, Səlim Sultanov (hamısı 66 kiloqram), Cəsur İbadlı, Əhməd Mehdiyev (hər ikisi 73 kiloqram), Mehdi Abbasov, Hüseyn Eyvazlı, Əli Qazıməmmədov (hamısı 81 kiloqram), Sübhan Axundov, Rəsul Səmədli (hər ikisi 90 kiloqram) mübarizə aparacaqlar.

Cüdoçulara baş məşqçi Rüstəm Alimli, məşqçilər Nicat Şıxəlizadə və Emin İskəndərov rəhbərlik edəcək.

Qeyd edək ki, yarışda Azərbaycan Cüdo Federasiyasının “A” kateqoriyalı beynəlxalq dərəcəli hakimi Akif Tahirov və “B” kateqoriyalı beynəlxalq dərəcəli hakim Bəhriyyə Hüseynova ədalət təmsilçiləri arasında yer alacaq.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 6830**
**Sifariş: 2736**
“Kapital Bank”ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI